

ƏDLİYYƏ

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 06 - iyun 2020



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

**№ 06 - iyun 2020**

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammiti ....4

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub ....6
Gənc ədliyyə işçiləri və könüllüləri ilə Milli Qurtuluş Gününə həsr olunmuş onlayn mühazirə ....7
Məhkəmə fəaliyyəti təkmilləşdirilir ....8
Cəza siyasətinin humanistləşdirilməsi diqqət mərkəzindədir ....12
Ədliyyə Nazirliyi tərəfindən səmərəli probasiya nəzarəti həyata keçirilir ....13
Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilir ....14
Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı....16
Penitensiar Xidmətdə bölgə vətəndaşlarının videoqəbulu keçirilib ....16
"Uşaqların ədliyyə sisteminə çıxışı" mövzusunda videokonfrans keçirilib ....16
Ədliyyə Akademiyasının təşkilatçılığı ilə distant formada beynəlxalq elmi-praktiki konfrans keçirilib....17

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2020-ci il tarixli 103-VIQD nömrəli Qanunu....19
“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 25 iyun tarixli 140-VIQD nömrəli Qanunu ....21
"Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ....34

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində vətəndaşların videoqəbulunun təşkili Qaydası ....44

# Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında sammiti

**İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Sammiti giriş sözü ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel açıb, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları çıxış ediblər.

Dövlətimizin başçısı çıxış edərək Azərbaycanın Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsi olduğunu, Avropa İttifaqı ilə əməkdaşlığın ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən olduğunu vurğulayıb. Bildirib ki, Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb.







İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında "Tərəfdaşlıq Prioritetləri" sənədinin paraflandığına toxunan Prezident İlham Əliyev burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyinin vurğulandığını diqqətə çatdırıb, Qeyd edib ki, Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın

baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Dövlətimizin başçısı işğala və humanitar fəlakətə baxmayaraq, Azərbaycan sosial-iqtisadi inkişafda böyük nəticələrin əldə olunmasından bəhs edib, koronavirus pandemiyasına qarşı görülən tədbirlərə toxunub.

Tədbir zamanı Ermənistanın baş naziri Nikol Paşinyan ermənicə replika ataraq çıxışında daha bir yalana imza atıb. O, Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia edib, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun ölkəsində qəhrəman kimi qəbul olunmasından narazılığını bildirib. Amma Paşinyan bilməlidir ki, beynəlxalq səviyyəli məhkəmənin qərarını təhrif etmək yolverilməzdir və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında da Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib. Qərarda baş vermiş hadisənin fərdi davranış əsasında törədildiyi qeyd olunub. Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalan və saxtakarlıqda ifşa edib.

Yenidən söz alaraq çıxış edən Prezident İlham Əliyev erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxunub. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş vermişdi. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində, əsas məqsədin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunur. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilir, mənzil və işlə təmin olunur. Bu, bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir.

Sammitdə Ermənistanın baş nazirinin çıxışı zamanı ingilis dilində kağızdan oxuyarkən beynəlxalq aləmdə qəbul olunmuş "Naqornıy Karabagh" sözünü, ermənicə çıxışında isə "Artsax" sözünü işlədir.

Bu, bir daha onu göstərir ki, Ermənistanın baş naziri yalnız daxili auditoriyaya hesablanan çıxışlarında beynəlxalq aləmin tanımadığı "Artsax" ifadəsini işlədir. Paşinyanın Sammitdəki çıxışı həm də Ermənistan baş nazirinin "ingilis dili səviyyəsini" göstərib. O, əvvəlcədən hazırlanan çıxışını kağızdan ingilis dilində oxusa da, sonra fikirlərini bu dildə ifadə edə bilməyib.

Paşinyan növbəti dəfə beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan tutarlı faktları qarşısında mat vəziyyətinə düşdü və özünü biabır etdi. Bu isə bütün hallarda istənilən bir hökumət başçısı üçün arzuolunan vəziyyət deyil.

Ən maraqlı və gülüş doğuran məqamlardan biri də tədbirə Paşinyanın qoruyucu maska ilə qatılması idi. Qeyd edək ki, Paşinyan bir müddət əvvəl koronavirusa yoluxduğunu elan etmiş, daha sonra da sağaldığını açıqlamışdı. Mütəxəssislər deyir ki, tibbi protokollara görə koronavirusa yoluxan və sağalan adam heç kimi yoluxdurmur. Çünki bədəndə anticisim formalaşır və belə olduqda maska taxılmasına ehtiyac yoxdur.

Bu halda Paşinyanın maska taxmasına nə ehtiyac var idi, həm də kamera qarşısında?! Kadrlardan da göründüyü kimi, Paşinyandan başqa heç bir dövlət və hökumət başçısı maska taxmayıb. Çünki beynəlxalq tibbi standartlara görə əgər yaxınlığında kimsə yoxdursa maska taxmaq lazım deyil. Deməli, bu, Paşinyanın növbəti ucuz şousudur. Onun bundan məqsədi özünü xalqı qarşısında qurban kimi göstərmək və ictimaiyyətin diqqətini cəlb etməkdir.

# Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub

**Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də ölkə rəhbərliyinə qayıdışı xalqımızın və müstəqil dövlətimizin xilasının başlanğıcı kimi qiymətləndirilərək bu tarixi hadisə respublikamızda Milli Qurtuluş günü kimi geniş qeyd edilir.**

Əlamətdar bayram münasibətilə ədliyyə orqanlarında karantin rejiminə əməl olunmaqla tədbirlər təşkil olunub, bir qrup gənc ədliyyə işçilərinin və könüllülərinin iştirakı ilə Ulu Öndərin mənalı ömür yolu və zəngin dövlətçilik fəaliyyəti barədə videokonfrans formatında onlayn mühazirə keçirilib. Heydər Əliyev muzeyində zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, nazirliyin saytında əbədiyaşar liderlə bağlı xüsusi bölmə yaradılıb, kinozalda filmlər, eləcə də foto və video slaydlar nümayiş etdirilib, nazirliyin sosial şəbəkə səhifələrində Azərbaycan xalqının milli qurtuluş gününə aid materiallar paylaşılıb, mətbuatda çıxışlar edilib.

Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən Ulu Öndər Heydər Əliyevin nazirlikdəki



büstü önünə gül dəstələri qoyulub, əziz və işıqlı xatirəsi dərin ehtiramla yad edilib.

Tədbirlərdə dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən, xilaskarlıq missiyasından bəhs olunub, onun ölkə rəhbərliyinə qayıdışı ilə milli dövlətçiliyimizin intibahının, Azərbaycanın hərtərəfli tərəqqisinin başlanıldığı qeyd olunub. Ulu Öndərin qurub yaratdığı müstəqil respublikamızın ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə davamlı və sabit inkişafı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ümummilli Liderin ideyalarını yaşadan və ölkəmizi beynəlxalq ictimaiyyətə tanıdan Heydər Əliyev Fondundakı mühüm fəaliyyəti xüsusilə vurğulanıb.

Ədliyyə işçiləri ölkə rəhbərliyinin sosial-iqtisadi tərəqqiyə və əhalinin rifahına xidmət edən siyasətini ürəkdən dəstəklədiyini bildirib, qlobal COVİD-19 infeksiyası ilə mübarizədə həmvətənlərimizlə həmrəy olaraq, bu sosial bəla ilə mübarizədə xalqımıza göstərilən qayğılı münasibətə görə respublika Prezidentinə və Birinci vitse-prezidentə təşəkkürlərini ifadə edib, cəmiyyətimizin müasir inkişafına uyğun olaraq var qüvvələri çalışmaq əzmində olduqlarını, indiki pandemiya dövründə sosial məsuliyyətlərini dərk etdiklərini söyləyiblər.

# Gənc ədliyyə işçiləri və könüllüləri ilə Milli Qurtuluş Gününə həsr olunmuş onlayn mühazirə

**1993-cü ilin iyun ayının 15-də ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı müasir Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. Bu gün xalqımızın ən əlamətdar bayramlarından olmaqla hər il ölkəmizdə geniş qeyd olunur, bu münasibətlə ədliyyə orqanlarında xüsusi karantin rejiminə əməl olunmaqla silsilə tədbirlər keçirilir.**





Nazirlik tərəfindən gənc ədliyyə işçilərinin, eləcə də bu il "Könüllülər ili" çərçivəsində ədliyyə fəaliyyətinə geniş cəlb olunmuş könüllülərin hərtərəfli, dövlətçiliyə sədaqət, milli və vətənpərvərlik ruhunda inkişafına, maariflənməsinə hər zaman böyük önəm verilir. Ulu öndərin zəngin siyasi irsinin və dövlətçilik amallarının gənc nəslə aşılanması məqsədilə iyunun 11-də Ədliyyə Nazirliyində bir qrup gənc ədliyyə işçilərinin və könüllülərinin iştirakı ilə videkonfrans formatında onlayn mühazirə keçirilib.

Tədbirə dəvət olunmuş Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, professor Hikmət Məmmədov müstəqil dövlətimizin qurtuluş tarixi, Heydər Əliyevin xilaskarlıq missiyası və zəngin dövlətçilik fəaliyyəti barədə məruzə ilə çıxış edib.

O, Azərbaycan xalqının milli qurtuluş gününə gedən yoldan bəhs edərək müstəqilliyimizin ilk illərində xalqımızın səriştəsiz idarəçiliklə, ölkədaxili xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü ilə üzləşdiyini diqqətə çatdırıb, məhz belə bir ağır dövrdə hakimiyyətə qayıdan Ümummilli Liderin xilaskarlıq missiyası nəticəsində müstəqilliyimizin qorunub möhkəmləndiyini, dövlətlə xalqın birliyinin təmin edildiyini, azərbaycançılıq ideologiyasının bərqərar edildiyini, demokratik hüquqi dövlətin qurulduğunu vurğulayıb.

Çıxış edən gənclər ulu öndər Heydər Əliyevin dövlətçilik prinsiplərinə daim sadiq qalacaqlarını, dahi öndərin işıqlı

xatirəsinin xalqımızın yaddaşında əbədi yaşayacağını bildiriblər.

Tədbirin davamı olaraq Ədliyyə nazirinin müavini Toğrul Musayevin iştirakı ilə qonaq nazirlikdə Heydər Əliyevə və ədliyyə tarixinə həsr olunmuş muzeylə tanış olub, dahi şəxsiyyətin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs olunaraq, onun siyasi irsinin indiki və gələcək nəsillərə örnək olduğu qeyd edilib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı inkişafının təmin olunması, bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü mühüm işlər, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ulu Öndərin ideyalarının və siyasi irsinin öyrənilməsindəki mühüm fəaliyyəti xüsusilə vurğulanıb.

# Məhkəmə fəaliyyəti təkmilləşdirilir

**İyunun 23-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Xüsusi karantin şəraitində videokonfrans formatında keçirilən iclasda qlobal pandemiya şəraitində ədalət mühakiməsinin həyata keçirilməsi və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ölkə Prezidentinin tapşırıqlarının icrası ilə bağlı tədbirlər müzakirə edilib.**




Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müstəqil respublikamızın cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə davamlı və sabit inkişaf etdiyini, idarəetmənin təkmilləşdirildiyini, həyata keçirilən islahatların, o cümlədən hakimiyyətin bütün qollarında aparılan kadr dəyişikliklərinin müsbət nəticələrini qeyd edib.

Dünyada tüğyan edən COVID-19 infeksiyasının qarşısının alınması ilə bağlı ölkəmizdə həyata keçirilən və dünyada nümunə göstərilən tədbirlərdən bəhs edilib, bu sosial bəla ilə mübarizədə fədakar əməyə görə respublika Prezidentinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq ifadə edilib. Pandemiya şəraitində ölkəmizin beynəlxalq aləmin etibarlı üzvü kimi qlobal miqyasda müsbət fəaliyyəti, o cümlədən 29 ölkəyə humanitar yardım göstərməsi xüsusi vurğulanıb.

Bildirilib ki, qlobal pandemiya şəraitində ədalət mühakiməsinin həyata keçirilməsi məsələləri də diqqətdə saxlanılır, Ali Məhkəmə Plenumunun qərarına əsasən məhkəmələr tərəfindən sərt karantin rejimi dövründə təxirəsalınmaz, yaxud bilavasitə məhkəmə baxışının keçirilməsini tələb etməyən işlərə baxılması təmin olunur.

"Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəmə proseslərinin video bağlantı şəklində keçirilməsi məqsədilə xüsusi proqram modulunun hazırlanması və bir sıra

məhkəmələrdə qeyd edilən formatda işlərə baxılması məhkəmə müdafiəsi hüququnun həyata keçirilməsinə əsaslı töhfə verib. Cinayət işlərinə də video bağlantı ilə baxılmasına dair qanun layihəsinin hazırda Milli Məclisin baxışında olduğu qeyd edilib.

İclasda həmçinin, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) bu ayın 10-da keçirilmiş virtual plenar iclasında qəbul etdiyi pandemiya və ondan sonrakı dövrdə ədalət mühakiməsinin həyata keçirilməsi məsələlərinə dair Xartiyası diqqətə çatdırılıb. Bu sənəddə göstərilən bir çox məsələlərin, o cümlədən insanların məhkəməyə çatımlığının təmini, onlayn xidmətlərdən istifadə və s. kimi tövsiyələrin artıq tətbiqi edildiyi təqdir olunub.

Qeyd olunub ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər pandemiya şəraitində də davam etdirilib, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 03.04.2019-cu il tarixli proqram xarakterli Fərmanının icrası üzrə ardıcıl tədbirlər görülüb. Fərmanın icrası çərçivəsində mühüm qanunvericilik paketləri qəbul edilib.

Dövlət başçısının yüksək humanizminin növbəti təzahürü olaraq, onun qanunvericilik təşəbbüsü ilə ötən ay Cinayət Məcəlləsinə edilmiş dəyişiklərlə 35 əməlin dekriminallaşdırılması, 30 maddənin sanksiyasına alternativ cəzaların daxil edilməsi xüsusi qeyd edilib, məhkəmələr tərəfindən həmin dəyişikliklərdən irəli gələn vəzifələrin dürüst icrası ilə bağlı qarşıda duran vəzifələr vurğulanıb.

Bildirilib ki, bu dövrdə dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ilə əlavə ayrılmış 200 hakim ştatının komplektləşdirilməsi üzrə tədbirlər davam etdirilib. Yeni qaydada - müasir informasiya texnologiyalarının tətbiqi ilə keçirilən və davamlı xarakter alan imtahanlarda uğur qazanmış 108 nəfər müsabiqənin müxtəlif mərhələsindədirlər. Namizədlərin sənəd qəbulu elektron qaydada hazırda da aparılır.

Həmçinin, ötən ay ölkə Prezidenti tərəfindən məsul hakim vəzifələrinə təyinatların edilməsi, bəzi hakimlərin iş yerinin intizam qaydasında dəyişdirilməsi, yaxud aşağı işə keçirilməsi, habelə yeni nəsil gənc hakimlərin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi mühüm əhəmiyyət kəsb edib.

Dövlət başçısının tövsiyələrinə uyğun olaraq Şura tərəfindən cari ildə 2 yeni mühüm sənədin - Ali Məhkəmə tərəfindən məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması, habelə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydalarının qəbul edildiyi, bu sahədə elektron proqram təminatının hazırlandığı bildirilib. Bunun hakimlərin fəaliyyətinin hərtərəfli qiymətləndirilməsində, sistem xarakteri daşıyan nöqsanların aşkar edilməsində və fəaliyyətində ciddi pozuntulara yol verən şəxslərin müəyyən edilməsində mühüm praktik alət olacağı vurğulanıb.

Artıq yeni Qaydalarla fəaliyyəti qiymətləndirilməsi nəzərdə tutulan 100-dən çox hakim, o cümlədən 50-dək yuxarı instansiya məhkəmələrinin hakimləri barədə qiymətləndirmə prosesinin başlanıldığı bildirilib.

Fərmanla verilmiş tövsiyələrə uyğun olaraq məhkəmələrdə işlərin hakimlər arasında elektron qaydada bölgüsü, bu sahədə şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların qarşısının alınması məqsədilə monitorinqlər keçirilib. Distant formada, "Elektron Məhkəmə" informasiya sistemi vasitəsilə təşkil edilən monitorinqlər zamanı aşkar olunan pozuntular 20-dən çox məhkəmə sədrinin diqqətinə çatdırılıb.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun əhəmiyyəti nəzərə alınaraq, pandemiya şəraitinə baxmayaraq, Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində Masallı Rayon Məhkəməsinin inzibati binasının tikintisinin başa çatdırıldığı, Sumqayıt məhkəmə kompleksinin və Suraxanı Rayon Məhkəməsinin binalarının tikintisinin isə tezliklə yekunlaşacağı bildirilib.

"Elektron məhkəmə" informasiya sisteminin tətbiqinin və onun imkanlarının geniş-

ləndirilməsi, insanların məhkəməyə çatımlılığının təmin edilməsi üzrə bugünlərdə Dünya Bankı ilə imzalanan yeni müqavilənin ədalət mühakiməsinin təkmilləşdirilməsinə, qeyri-prosessual münasibətlərin qarşısının alınmasına əsaslı töhfələr verəcəyi vurğulanıb.

İclasda məhkəmə sistemində şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan hallara qarşı qəti mübarizə aparılması ilə bağlı dövlət başçısının tapşırıqlarının diqqətdə saxlanıldığı, bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirildiyi bildirilib.

Bu məqsədlə, ötən ay Məhkəmə-Hüquq Şurası rəhbərliyi tərəfindən bütün məhkəmə sədri və müavinləri, kollegiya sədrlərinin iştirakı ilə video-müşavirə keçirilərək, qanun pozuntularına ciddi reaksiya verilməsi, süründürməçilik, sui-istifadə hallarının, qeyri-prosessual münasibətlərin yolverilməzliyi, korrupsiya və digər neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

Həmin müşavirədə qeyd edilən məsələlərin hər bir hakimin və məhkəmə işçisinin diqqətinə çatdırılması məqsədilə təxirəsalınmadan bütün məhkəmələrdə tədbirlər keçirilib, yol verilən nöqsanlar və onların səbəbləri müzakirə edilib. Korrupsiyaya şərait yaradan, insanların haqlı narazılığını doğuran hallara qarşı qəti və barışmaz münasibət nəzərə çatdırılıb.

Eləcə də hazırkı pandemiya şəraitində bütün vəzifəli şəxslər tərəfindən müstəsna dərəcədə sosial məsuliyyətlilik göstərilməsinin, karantin rejiminə dönmədən əməl edilməsinin zəruriliyi bildirilib.

Həyata keçirilən tədbirlər qısa müddətdə öz müsbət bəhrəsini verərək, hakimlərin özlərinə və məhkəmə əməkdaşlarına qarşı daha tələbkar olmaları ilə nəticələnib, bir çox neqativ halların aradan qaldırılmasına nail olunub.

Bununla belə bəzi hakimlər tərəfindən intizamsızlıq və qanunvericiliyin tələblərinin pozulması hallarına yol verildiyi müəyyən edilib.

İclasda xüsusi karantin rejiminin, hakimlərin etik davranış Qaydalarının tələblərinin pozulmasına görə Saatlı Rayon Məhkəməsinin sədri İxtiyar Abuşova, qanunvericiliyin tələblərini pozduğuna görə Mingəçevir Şəhər Məhkəməsinin hakimi Ələkbər Hüseynova töhmət verilib, 5 hakim, o cümlədən korrupsiyaya və qeyri-prosessual münasibətlərə şərait yaradan hallara yol verdiklərinə görə 2 məhkəmə sədri barədə intizam icraatı başlanılıb.

Məhkəmə sisteminə ictimai etimadı azaldan və ədalət mühakiməsinin nüfuzuna xələl gətirən hallara yol verən hakimlər barədə bundan sonra da ən sərt tədbirlərin görüləcəyi bir daha diqqətə çatdırılıb.

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə aparılır, dövlət başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq ictimai həyatın bütün sahələrində, o cümlədən məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların qarşısının alınması üzrə ardıcıl tədbirlər görülür.**

Bu məqsədlə son dövrlər həyata keçirilən institusional və qanunvericilik tədbirləri, hakimlərin təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması, infrastrukturun müasirləşdirilməsi, hakim ştatlarının 3 dəfəyə yaxın, o cümlədən sonuncu dəfə dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanı ilə 200 vahid artırılması məhkəmə fəaliyyətinin səmərəliliyinə əsaslı təsir göstərib. Ötən ay hakimlərin təyinatı ilə bağlı 60-dan çox mühüm qərarların qəbulu, o cümlədən dövlət başçısının Sərəncamları ilə Ali Məhkəmənin sədr müavini və kollegiya sədrləri, apellyasiya instansiyası məhkəmələrinin 11 kollegiya sədri, 16 məhkəmə sədrlərinin təyin edilməsi, bəzi hakimlərin iş yerinin intizam qaydasında dəyişdirilməsi, habelə Ali Məhkəmənin 5 hakiminin aşağı işə

keçirilməsi və 20-dək yeni nəsl gənc hakimin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi mühüm əhəmiyyət kəsb edib.

Mətbuatda xəbər verildiyi kimi ötən ay ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə qarşıda duran vəzifələrə dair Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi və Ali Məhkəmənin sədri Ramiz Rzayevin iştirakı ilə videokonfrans formatında müşavirə keçirilib. Ölkənin bütün məhkəmə sədri və müavinləri, kollegiya sədrlərinin iştirakı ilə keçirilən müşavirədə qanunun aliliyinin və qərarların ədalətliliyinin təmin edilməsi ilə bağlı dövlət başçısının tövsiyələri diqqətə çatdırılmaqla, qanun pozuntularına ciddi reaksiya verilməsi, korrupsiya və digər neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının alınması üzrə qəti tədbirlər vurğulanıb.

Qeyd edilən məsələlərin hər bir hakimin və məhkəmə işçisinin nəzərinə çatdırılması məqsədilə bu ərəfədə Məhkəmə-Hüquq Şurasının, Ədliyyə Nazirliyinin məsul şəxsləri və apellyasiya məhkəmələrinin rəhbərliyinin iştirakı ilə bütün məhkəmələrdə hakimlər və məhkəmə aparatı əməkdaşları ilə birgə müşavirələr keçirilib. Məhkəmə sistemində şəffaflığın təmin edilməsi, süründürməçilik, sui-istifadə hallarının, qeyri-prosessual münasibətlərin yolverilməzliyi, bununla bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, yol verilən nöqsanlar və onların səbəbi müzakirə edilib.



"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" dövlət başçısının 03.04.2019-cu il tarixli Fərmanına uyğun olaraq 60-dan çox məhkəmədə keçirilən monitorinqlər zamanı insanların haqlı narazılığını doğuran 150-dən artıq halın aşkar edilərək hakim və məhkəmə sədrlərinin diqqətinə çatdırılması, daha kobud pozuntularla bağlı isə intizam icraatlarının başlanıldığı vurğulanıb. Ötən il 48 hakimin intizam məsuliyyətinə cəlb edilməsi, 2 nəfərin səlahiyyətlərinə xitam verilməsi, 7 nəfərin işdən azad olunması, 2 hakim barədə isə materialların korrupsiya əməllərinə görə istintaqa verilməsi və artıq onlardan birinin, həmçinin vasitəçilik etmiş məhkəmə aparatı işçisi və vəkilin cinayət məsuliyyətinə cəlb olunmaqla, məhkum edildiyi qeyd olunub.

Vətəndaşların haqlı narazılığına səbəb olan, məhkəmə sisteminə ictimai etimadı azaldan və öz yarıtmaz fəaliyyəti ilə ədalət mühakiməsinin nüfuzuna xələl gətirən hallara yol verən hakimlər barədə ən sərt tədbirlərin görüləcəyi hər bir hakimin diqqətinə çatdırılıb.

Dövlət başçısının tövsiyələrinə uyğun olaraq Şura tərəfindən cari ildə 2 yeni mühüm sənədin - hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydalarının qəbul edildiyi, bu sahədə elektron proqram təminatının hazırlandığı bildirilib. Həmin sənədlərin tətbiqinin hakimlərin məsuliyyət hissinin artırılmasında, sistem xarakteri daşıyan nöqsanların aşkar edilməsində daha işlək mexanizmlər yaratdığı vurğulanıb.

Məhkəmə sistemində hüquq pozuntularının qarşısının alınması və onlara qarşı dözülməz münasibətin təşviqi üzrə tədbirlər davam etdirilir.

# Cəza siyasətinin humanistləşdirilməsi diqqət mərkəzindədir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının qorunmasına daim xüsusi önəm verilir, bu sahədə mütərəqqi islahatlar aparılır, o cümlədən cəza-icra siyasəti humanistləşdirilir.**







Dövlət başçısı tərəfindən və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunan əfv və amnistiya aktları, COVİD-19 pandemiyası dövründə yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi dövlətimizin humanist siyasətinin əyani təzahürüdür.

Eyni zamanda azadlıqdan məhrum etmə cəzasının tətbiqinin azaldılması və alternativ cəzalara üstünlük verilməsi məqsədilə ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə cinayət qanunvericiliyinə əsaslı dəyişikliklər edilmiş, bir çox əməllər dekriminallaşdırılmış, azadlığın məhdudlaşdırılması yeni cəza növü təsbit olunmuşdur.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı yeni Qanunun təsiri altına düşən məhkumlar barədə məhkəmələrə göndərilmiş təqdimatlardan 6.400-ü təmin edilmiş, o cümlədən cəzaçəkmə müəssisələrində saxlanılan və probasiya qurumlarının qeydiyyatında olan 1.737 nəfər məhkum cəzadan tamamilə azad edilmiş, 2.800-ə yaxın məhkumun törətdiyi əməllər yeni maddələrə tövsif edilərək cəza müddətləri azaldılmışdır.

Bununla yanaşı, Ədliyyə Nazirliyi tərəfindən məhkumları vaxtından əvvəl şərti olaraq azad etmə institutunun tətbiqi davamlı xarakter almış, o cümlədən indiki pandemiya dövründə intensivləşərək 600-dən artıq məhkum azadlıqdan məhrum etmə növündə cəzadan şərti azad edilərək probasiya qeydiyyatına götürülmüşdür. Hazırda probasiya qurumlarının qeydiyyatında olan 1.270 nəfər cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs barədə müvafiq məhkəmə qərarlarının icrası davam etdirilir.

"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanda da dövlət başçısının humanist siyasətinin təzahürü olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılmasına dair tədbirlərin davam etdirilməsi tapşırılmış, bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların icrası məcəllələrinə əsaslı dəyişikliklərin edilməsi, o cümlədən bir çox əməllərin dekriminallaşdırılması, alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı hazırlanmış qanun layihələri Milli Məclisə təqdim olunmuş və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında 01.05.2020-ci il tarixli Qanunla Cinayət Məcəlləsinə mühüm dəyişikliklər edilmişdir.

Dəyişikliklərə əsasən 35 əməl tamamilə və ya cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılmaqla dekriminallaşdırılmış, bəzi cinayətlərə görə zərərçəkmiş şəxslə barış-

ma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, azadlıqdan məhrum etmə cəzasının tətbiqi hallarının azaldılması məqsədilə 30 maddənin sanksiyasına alternativ cəzalar, o cümlədən cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması cəzaları daxil edilmiş, hərbi xidmət əleyhinə olan cinayətlərə görə cəzalar yüngülləşdirilmişdir.

Yeni Qanun və onun tətbiqi barədə dövlət başçısının 22.05.2020-ci il tarixli Fərmanı ədliyyə orqanlarının üzərinə mühüm vəzifələr qoymuş, bununla əlaqədar Ədliyyə Nazirliyi üzrə 01 iyun 2020-ci il tarixli əhatəli Əmr imzalanaraq, Qanunun dürüst və mütəşəkkil icrasının təmin olunması, o cümlədən penitensiar və probasiya xidmətlərinin əməkdaşlarına təlimlərin keçirilməsi, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə Qanunun humanist mahiyyəti barədə geniş maarifləndirmə işinin aparılması, Qanunun təsiri altına düşən şəxslərin dairəsinin dəqiq müəyyən olunaraq onların cəzadan azad olunması və ya cəzasının yüngülləşdirilməsi ilə bağlı təxirəsalınmadan qanunamüvafiq tədbirlərin görülməsi barədə və digər konkret tapşırıqlar verilmişdir.

# Ədliyyə Nazirliyi tərəfindən səmərəli probasiya nəzarəti həyata keçirilir

**Ölkə Prezidenti İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamına uyğun olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların səmərəli icrası məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidməti yaradılmış və cəzaların icrasında elektron nəzarət vasitələrinin (elektron qolbaqların) tətbiqi təsbit olunmuşdur. Bu məqsədlə Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Monitorinq Mərkəzi fəaliyyət göstərir.**



Bu gün Probasiya xidməti cərimə, nəqliyyat vasitəsini idarəetmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını və həmin cəzalara məhkum edilmiş, habelə şərti məhkum olunmuş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış, eləcə də cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətini həyata keçirərək həmin şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikasını aparır.

Cəzaların icrası sahəsində həyata keçirilən islahatlar insanların azadlıq hüququnun qorunmasına və məhkum olunan şəxslərin cəmiyyətdən təcrid olunmadan islah edilməsinə və sosial adaptasiyasına xidmət edir.

Son illər azadlıqdan məhrumetməyə alternativ cəzaların daha geniş tətbiq olunması

nəticəsində Probasiya Xidmətinin qeydiyyatında olan şəxslərin sayı cari ilin 5 ayı ərzində 18 mini ötmüşdür.

Onlardan 4.800-ə yaxın azadlığın məhdudlaşdırılması, 6.000-dən çox cərimə, islah və ictimai işlər, 2.300 cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 2.400 şərti məhkum edilmiş və 156 nəfər cəza çəkməsi təxirə salınmış şəxslərdir. Nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrumetmə cəzasına məhkum olunanların sayı 1.200-ə yaxın, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilənlərin sayı isə 406 nəfər təşkil edilr.

Həmçinin, ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş 654 nəfər, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş 354 nəfər probasiya nəzarətindədir.

Azadlıqdan məhrumetməyə alternativ cəzaların icrası diqqətdə saxlanılaraq bu dövrdə 3.900-dən çox şəxs cəza müddətinin başa çatması ilə əlaqədar və digər qanuni əsaslarla probasiya qeydiyyatından çıxarılmışdır. Onlardan cəza çəkməkdən boyun qaçıran 206 nəfərin cəzası isə məhkəmələr tərəfindən daha ağır cəza növü, o cümlədən 82 nəfərin cəzası azadlıqdan məhrum etmə cəzası ilə əvəz olunmuşdur.

Eyni zamanda ictimai işlər növündə cəzanın daha səmərəli tətbiqi və icrasına effektiv nəzarətin həyata keçirilməsi ilə bağlı əməli işlər görülmüş, o cümlədən qanunvericilik təkmilləşdirilmiş, yerli icra hakimiyyəti orqanları ilə daha səmərəli qarşılıqlı fəaliyyət qurulmuş, ictimai işlərin keçirildiyi yerlərdə məhkumların işlədikləri vaxtlarda mütəmadi monitorinqlər aparılmışdır. Cari ilin 5 ayı ərzində 262 nəfər barədə ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası təmin edilmiş, bu növ cəzanın və inzibati tənbehin icrası ilə bağlı 50.675 saat ictimai işlər yerinə yetirilmişdir.

Ötən dövr ərzində 4.684 məhkuma elektron nəzarət vasitələri tətbiq edilmişdir. Cəza müddəti başa çatdığı üçün və qanunvericiliklə müəyyən edilmiş digər əsaslarla 1.536 məhkumdan elektron qolbaqlar çıxarılmışdır. Hazırda elektron qolbaq daşıyan 3.148 nəfər müvafiq cəzalarını çəkir və Monitorinq Mərkəzi tərəfindən onlara fasiləsiz təsirli nəzarət həyata keçirilir.

Qeyd olunmalıdır ki, indiki pandemiya şəraitində koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarının qarşısının alınması məqsədilə Probasiya Xidməti tərəfindən cəzaların icrası və probasiya nəzarətinin həyata keçirilməsi ilə əlaqədar vəzifələrin yerinə yetirilməsi, xüsusilə məhkumların qəbulu, qeydiyyata alınması, elektron nəzarət vasitələrinin tətbiqi, onların dəyişdirilməsi və çıxarılması prosedurları icra edilərkən Ümumdünya Səhiyyə Təşkilatının, habelə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tövsiyələrinə uyğun olaraq zəruri təhlükəsizlik tədbirləri, sanitariya-gigiyena qaydalarına ciddi riayət olunması, qoruyucu tibbi vasitələrdən (maska, əlcək, antiseptik vasitə və s.) istifadə edilməsi, vətəndaşlarla sosial məsafənin saxlanılması ilə bağlı bütün zəruri işlər görülür.

# Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilir

**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamız dinamik inkişaf yolunda inamla irəliləyir, müasir çağırışlara uyğun genişmiqyaslı islahatlar həyata keçirilir, təhlükəli sosial bəla olan korrupsiyaya qarşı qəti mübarizə aparılır, yerli və mərkəzi icra orqanlarının fəaliyyətində yol verilən pozuntular aşkar olunaraq ən sərt tədbirlər görülür.**

Dövlət başçısının qanunun tələblərinə dönmədən əməl olunması, insanlara layiqli xidmət göstərilməsi, şəffaflığın artırılması və korrupsiyanın yolverilməzliyi barədə göstərişləri ilə bağlı Ədliyyə naziri

Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş Kollegiya iclasında verilmiş tapşırıqlara əsasən tabe qurumların kollektivləri ilə xüsusi karantin rejiminə əməl olunmaqla video-əlaqə vasitəsilə müşavirələr keçirilir.

Bununla əlaqədar həmçinin, Ədliyyə Nazirliyində iyunun 5-də Bələdiyyələrlə iş mərkəzinin rəhbərliyinin, regional ədliyyə idarələri rəislərinin və aidiyyəti məsul işçilərinin iştirakı ilə videokonfrans formatında müşavirə keçirilib.

Müşavirədə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli islahatların uğurlu nəticələri, vətəndaşların rifahına xidmət edən məqsədyönlü tədbirlərin həyata keçirilməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyəti vurğulanıb. Qlobal pandemiya ilə mübarizə çərçivəsində dövlətimiz tərəfindən COVİD-19 infeksiyasının daha geniş yayılmasının qarşısının alınması ilə bağlı ardıcıl qəti tədbirlərin görüldüyü qeyd olunub.

Dövlət başçısının korrupsiya və digər xoşagəlməz hallara qarşı qəti tədbirlərin görülməsi, o cümlədən bələdiyyələrin fəaliyyətində neqativ halların qarşısının alınması ilə bağlı tapşırıqlarından irəli gələn, həmçinin qanunçuluğun təmin olunması, onlara göstərilən metodiki köməyin və inzibati nəzarətin gücləndirilməsinə dair qarşıda duran vəzifələr müzakirə olunub.

Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov çıxış edərək nazirlik tərəfindən 2019-cu ildə 80 mindən çox bələdiyyə aktı üzrə inzibati nəzarətin həyata keçirildiyini, 2.800-ə yaxın aktın nazirliyin təklifləri əsasında ləğv edildiyini və ya dəyişdirildiyi, habelə qanunsuz verilmiş 7.000 hektardan çox torpaq sahəsinin geri qaytarıldığını bildirib. Qeyd olunub ki, pozuntulara yol verən 130-dan çox bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokollar məhkəmələrə, cinayət xarakterli 24 fakt üzrə materiallar isə prokurorluğa göndərilib. İnzibati nəzarət zamanı müəyyən edilmiş hüquq pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınmasına önəm verilərək bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 9.200-dən artıq tövsiyə göndərilib.



Müşavirədə inzibati nəzarətlə bağlı nazirlik tərəfindən təqdim olunmuş illik məruzənin Milli Məclisin iclasında dinlənildiyi qeyd olunaraq, bələdiyyələrin fəaliyyəti ilə bağlı deputatların irəli sürdükləri təkliflər diqqətə çatdırılıb, bu sahədə inzibati nəzarətin səmərəliliyinin artırılmasının, yeni seçilmiş bələdiyyə üzvləri və qulluqçularına metodoloji yardımın gücləndirilməsinin, şəffaflığın, hesabatlılığın və aşkarlığın təmin edilməsinin, o cümlədən yerli büdcənin qəbulu və icrasının qanunvericiliyin tələblərinə uyğun şəffaf həyata keçirilməsinin, dövlət büdcəsindən ayrılan maliyyə vəsaitindən və yerli büdcə vəsaitlərindən qanunauyğun və səmərəli istifadə olunmasının vacibliyi vurğulanıb.

İclasda həmçinin "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində bələdiyyələrin fəaliyyətində elektron sənəd dövriyyəsinin tətbiqi, onların internetə çıxışının artırılmasına və internet səhifələrinin açılmasına kömək edilməsi, bələdiyyələrlə iş portalının yaradılması işinin sürətləndirilməsi, kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından istifadə etməklə yerli büdcənin hesabatlılığının təmin edilməsi ilə bağlı bələdiyyələrlə iş aparılması barədə və digər məsələlər müzakirə olunub.

# Ədliyyə Nazirliyi Mətbuat xidmətinin məlumatı

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iradəsi ilə çoxpartiyalı sistemin inkişafı, ümumi maraqlar naminə partiyalararası dialoqun genişləndirilməsi və bu sahədə münasibətlərin sağlam zəmində qurulmasına yönələn ardıcıl tədbirlər görülür, o cümlədən son aylarda 4 siyasi partiya Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçmişdir.**

Görülən işlər çərçivəsində Milli Vəhdət Partiyası, Azərbaycan Milli Demokrat Partiyası və Ağ Partiyasının (əvvəlki Vahid Azərbaycan Partiyası) nazirliyə təqdim olunmuş təsis və digər sənədlərinə edilmiş dəyişikliklərin qanunvericiliyə uyğunluğu öyrənilmiş və qeydiyyata alınmışdır. Bununla bağlı partiyalara dövlət reyestrindən çıxarışlar verilmişdir.

# Penitensiar Xidmətdə bölgə vətəndaşlarının videoqəbulu keçirilib

**Dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiyaya qarşı qəti tədbirlər görülür, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə zəruri preventiv və profilaktik işlər aparılır, kütləvi tədbirlərlə yanaşı açıq qəbullar təxirə salınıb.**

Ədliyyə Nazirliyi üzrə 2020-ci il 10 iyun tarixli əmrə uyğun olaraq Penitensiar Xidmətin rəis müavini Oqtay Məmmədov tərəfindən Xaçmaz, Gəncə, Şəki, Şirvan və İmişli regional ədliyyə idarələrinin yurisdiksiyasını əhatə edən rayonların vətəndaşları ilə videoqəbul keçirilib.

Qeyd olunan regional ədliyyə idarələri vasitəsilə əvvəlcədən qəbula yazılmış 15 vətəndaşın videokonfrans şəklində müraciətləri dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin videoqəbulunda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri pandemiya şəraitində vətəndaşların müraciətlərinin dinlənilməsinin videokonfrans şəklində təşkilindən məmnunluqlarını bildirib, onların qayğılarına həssaslıqla və diqqətlə yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər.

# "Uşaqların ədliyyə sisteminə çıxışı" mövzusunda videokonfrans keçirilib

**Ədliyyə Nazirliyində BMT-nin Uşaq Fondu (UNİCEF) ilə birgə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Uşaqların ədliyyə sisteminə çıxışı" mövzusunda videokonfrans formatında görüş keçirilib.**

Tədbirdə Ədliyyə, Daxili İşlər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Baş Prokurorluğun, Ombudsman Aparatının məsul şəxsləri, hakim, Vəkillər Kollegiyasının nümayəndəsi, UNİCEF-in Azərbaycandakı ofisinin proqram rəhbəri və vətəndaş cəmiyyətinin üzvləri iştirak ediblər.

Görüşdə cəmiyyətimizin həssas təbəqəsi olan uşaqların hüquqlarının etibarlı qorunması üzrə ölkəmizdə görülən tədbirlər, bu sahədə aidiyyəti dövlət qurumlarının və vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyətinin, UNİCEF-lə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Tədbirdə ümummilli lider Heydər Əliyevin uşaqların hərtərəfli inkişafına daim göstərdiyi yüksək qayğıdan, ölkəmizdə uşaq hüquqlarının etibarlı təmin olmasına xidmət edən qanunvericilik və institusional tədbirlərdən bəhs olunub, dövlət uşaq siyasətinin respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirildiyi, uşaq-

ların sosial təminatının gücləndirilməsi, onların firəvan və sağlam, yüksək mənəvi-əxlaqi mühitdə layiqli şəxsiyyət kimi yetkinləşməsi istiqamətində məqsədyönlü addımların atıldığı vurğulanıb.

Uşaqlara, xüsusilə fiziki imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olanlara daim qayğı və həssaslıqla yanaşan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın balaca soydaşlarımızı əlamətdar gün münasibətilə təbrik etdiyi, onun rəhbərliyi və təşəbbüsü ilə uşaqların təhsili, sağlamlığı ilə bağlı çoxsaylı layihələrin həyata keçirildiyi və yeni müasir sosial infrastrukturun yaradıldığı diqqətə çatdırılıb, bu sahədə Heydər Əliyev Fondunun mühüm fəaliyyəti qeyd olunub.

Bildirilib ki, uşaqların hüquqlarının müdafiəsi ölkəmizin də qoşulduğu BMT-nin "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədlərinin vacib hədəflərindəndir. Həmçinin bu sahədə Azərbaycan və UNİCEF sıx əməkdaşlıq edərək yuvenal ədliyyənin inkişafı ilə bağlı birgə tədbirlər həyata keçirir.




Eyni zamanda ölkəmiz UNİCEF tərəfindən hazırlanmış BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının yuvenal ədliyyə sahəsindəki öhdəliklərini ehtiva edən "Öhdəlik Bəyannaməsi"nə qoşulub və sənəd bu yaxınlarda Ədliyyə Nazirliyi tərəfindən imzalanıb.

Doğumun qeydiyyatı sahəsində görülən tədbirlərdən bəhs olunaraq bildirilib ki, Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən cari ilin 5 ayı ərzində 48 minə yaxın doğum dövlət qeydiyyatına alınıb, o cümlədən qeydiyyatdan kənarda qalmış uşaqlar müəyyən olunaraq, onlara və səyyar qaydada tibb müəssisələrində ümumilikdə 700-ə yaxın doğum haqqında şəhadətnamə verilib.

Bununla yanaşı, ölkəmizdə sağlamlıq imkanları məhdud olan, xüsusi kateqoriyaya aid uşaqlara sosial xidmətlərin göstərilməsi, onların reabilitasiyası, yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilərkən onların hüquqlarının müdafiəsinin gücləndirilməsi, yuvenal ədliyyə sahəsində hüquq-mühafizə orqanları əməkdaşlarının, hakimlərin, vəkillərin təlimi, bu məqsədlə Ədliyyə Akademiyasında treninqlərin təşkili, müxtəlif regionlarda uşaqlar, onların ailə üzvləri üçün hüquqi yardım xidmətlərinin göstərilməsi, vətəndaş cəmiyyəti institutları ilə aidiyyəti dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin genişləndirilməsi və s. ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Ədliyyə Akademiyasının təşkilatçılığı ilə distant formada beynəlxalq elmi-praktiki konfrans keçirilib

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən Martin Lüter adına Halle-Vittenberg Universiteti, Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli hüquq İnstitutu, Moskva Dövlət Universiteti, Ural Dövlət Hüquq Universiteti ilə birgə "Rəqəmsal mühakimə dövründə məhkəmə təcrübəsinin formalaşması problemləri" mövzusunda distant formada beynəlxalq elmi-praktiki konfrans keçirilib.**

COVİD-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiqi nəzərə alınaraq videokonfrans formatında keçirilmiş tədbirdə 100-dən çox

nümayəndə, o cümlədən ölkəmizin ali, apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri, Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun nümayəndələri, Vəkillər Kollegiyasının üzvləri, həmçinin Ədliyyə Akademiyasında ilkin uzunmüddətli tədris kursu keçən hakimliyə namizədlər iştirak ediblər.

Konfransda təhsil müəssisələrinin professor-müəllim heyətinin, Azərbaycan Ali Məhkəməsinin və Hamburq Torpaq Məhkəməsinin hakimlərinin mühazirələri dinlənilib.

Tədbirdə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarından bəhs olunub, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamının icrası çərçivəsində həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrumetmə cəzasının təyin edilməsi ilə bağlı məhkəmə təcrübəsinin mütəmadi ümumiləşdirilməsi və bu sahədə ədalətli məhkəmə təcrübəsinin formalaşdırılmasının təmin edilməsi ilə bağlı görülən işlərə toxunulub.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatlarının dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən məhkəmələrdə hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və



prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması mexanizmləri ilə bağlı qanunvericiliyin təkmilləşdirildiyi qeyd olunub.

Bildirilib ki, yeni qanunvericiliyə əsasən Ali Məhkəmənin bu təcrübəni formalaşdırmaq vəzifəsi "Məhkəmələr və hakimlər haqqında" Qanunda birbaşa təsbit olunub, Ali Məhkəmə Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahların əhəmiyyəti artırılıb, həmin izahlardan fərqli qərarların qəbul edilməsinin konkret hüquqi nəticələri müəyyən edilib, Məhkəmə-Hüquq Şurasının 29 fevral 2020-ci il tarixli Qərarı ilə "Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası" təsdiq olunub.

Ölkəmizdə qısa müddətdə görülən bu tədbirləri maraqla qarşılayan xarici ölkələri mütəxəssisləri vahid məhkəmə təcrübəsinin formalaşması prosesində qanunvericiliyin sabitliyinin, məhkəmə hakimiyyətinin müstəqilliyinin vacibliyini, ədalət mühakiməsi sahəsində rəqəmsal texnologiyaların tətbiqinin əhəmiyyətini vurğulayıblar. Xüsusi olaraq bildiriblər ki, ədalət mühakiməsi sahəsində elektron texnologiyaların tətbiqi məhkəmə təcrübəsinin vətəndaşlar üçün əlçatanlığını təmin edir, məhkəmədə qanunvericiliyin və məhkəmə qərarlarının axtarışını asanlaşdıraraq onların sistemli ümumiləşdirilməsi işinə xidmət edir.

Eyni zamanda, məruzəçilər tərəfindən beynəlxalq səviyyədə vahid məhkəmə təcrübəsinin formalaşmasında yuxarı instansiya məhkəmələrinin rolu və məhkəmə hakimiyyətinin müstəqilliyi məsələləri işıqlandırılıb, məhkəmə sənədlərinin tərtibatı sahəsində mütərəqqi Avropa təcrübənin öyrənilməsinin əhəmiyyəti qeyd olunub, maraq doğuran mövzularda faydalı fikir mübadiləsi aparılıb.

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8 (I kitab), maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12 (I kitab), maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2 (I kitab), maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193, N 7 (I kitab), maddələr 1414, 1427, N 10, maddə 1962, N 11, maddələr 2186, 2210, N 12 (I kitab), maddələr 2498, 2509; 2019, N 1, maddə 30, N 4, maddə 590, N 5, maddələr 796, 801, 804, 812, 814, N 8, maddələr 1364, 1373, 1378, N 12, maddə 1894) 90.3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. Dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin siyahıya alınmış əmlakının məhkəmənin qərarı ilə qiymətləndirildiyi, habelə tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna olmaqla, vergi ödəyicisinin siyahıya alınmış əmlakının qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.";

1.2. beşinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcra məmuru qiymətləndirmə sahəsində ixtisaslaşmış və 5 ildən az olmayaraq fəaliyyət göstərən, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi sahədə olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir.".

**Maddə 2.** "Qiymətləndirmə

fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 9, maddə 562; 2002, N 5, maddə 241; 2007, N 5, maddə 436, N 8, maddə 745, N 10, maddə 938; 2012, N 6, maddə 502) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddə üzrə:

2.1.1. üçüncü abzasa "girov" sözündən sonra "(ipoteka)" sözü əlavə edilsin;

2.1.2. səkkizinci abzasdan "(bu halda qiymətləndirmə əmlakın mülkiyyətçisi olan şəxslərin sifarişi ilə qiymətləndirici tərəfindən və ya qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır)" sözləri çıxarılsın;

2.2. 12-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu Qanunun 5-ci maddəsinin səkkizinci abzasında nəzərdə tutulan məcburi qiymətləndirmə icra məmurunun sifarişi ilə həyata keçirildiyi halda, icra məmuru qiymətləndirmə sahəsində ixtisaslaşmış və 5 ildən az olmayaraq fəaliyyət göstərən, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi sahədə olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir.";

2.3. 13-cü maddənin ikinci hissəsində "Qiymətləndirmə" sözü "Azərbaycan Respublikasının qanunlarında başqa hal nəzərdə tutulmamışdırsa, qiymətləndirmə" sözləri ilə əvəz edilsin.

Maddə 3. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 18; 2001, N 11, maddə 687, N 12, maddə 731; 2003, N 1, maddə 23; 2004, N 2, maddə 57, N 3, maddə 133; 2006, N 11, maddə 928; 2007, N 1, maddə 4, N 7, maddə 712; 2010, N 7, maddə 591; 2011, N 6, maddə 477, N 7, maddə 584, N 12, maddə 1092; 2013, N 7, maddə 788; 2015, N 3, maddə 252; 2016, N 6, maddə 991; 2018, N 7 (I kitab), maddə 1423) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7-ci maddənin birinci hissəsinin altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci-onuncu abzaslar əlavə edilsin:

"tələbin borclunun əmlakına, o cümlədən nağd, yaxud banklarda və ya digər kredit təşkilatlarındakı hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinə və başqa sərvətlərinə yönəldilməsi zamanı qəbul olunmuş qərar (əmlakın üzərinə həbs qoyulması və s.) barədə 1 iş günündən gec olmayaraq qarşılıqlı inteqrasiya olunmuş elektron sistem vasitəsilə "Elektron hökumət" portalında müvafiq qeydlər aparır;

icra sənədində göstərilmiş tələblər aydın olmadıqda, həmin icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması barədə müvafiq məhkəməyə və ya digər orqana ərizə ilə müraciət edir;

icra sənədlərinin aidiyyəti üzrə göndərilməsi barədə tələbkara məlumat verir;

qanunla müəyyən edilmiş hallarda və müddətlərdə borclunun əmlakının mühafizəsini təmin edir.";

3.2. 8-ci maddənin birinci hissəsi üzrə:

3.2.1. on birinci abzas ləğv edilsin;

3.2.2. on beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on altıncı-on səkkizinci abzaslar əlavə edilsin:

"müvafiq icra hakimiyyəti orqanı və digər dövlət orqanlarından (qurumlarından) icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı onların səlahiyyətlərinə uyğun olaraq yardım almaq;

icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar məlumatları müvafiq icra hakimiyyəti orqanının "Elektron icra" informasiya sistemi vasitəsilə əldə etmək;

qanunda nəzərdə tutulmuş qaydada eyni vaxtda birdən çox məcburi icra tədbiri görmək.";

3.3. 12-ci maddənin üçüncü hissəsində "notariat orqanlarının" sözləri "notariusların" sözü ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 may 2020-ci il*
*N 103-VIQD*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, (II kitab), maddə 585; 2001, N 7, maddə 455; 2002, N 1, maddə 9, N 5, maddə 233, N 8, maddə 463; 2003, N 6, maddə 276; 2004, N 5, maddə 321, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761, N 11, maddə 890; 2005, N 1, maddə 4, N 4, maddə 278, N 6, maddə 462, N 8, maddə 686, N 10, maddə 874, N 12, maddə 1079; 2006, N 1, maddə 3, N 2, maddə 64, N 5, maddə 390, N 10, maddə 847, N 11, maddə 929, N 12, maddə 1032; 2007, N 2, maddələr 65, 68, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756, N 11, maddə 1049, N 12, maddə 1221; 2008, N 6, maddə 462, N 7, maddələr 606, 607, N 12, maddələr 1045, 1049; 2009, N 5, maddə 315, N 7, maddə 517, N 12, maddə 966; 2010, N 3, maddələr 171, 173, 178, N 7, maddə 593, N 12, maddə 1058; 2011, N 6, maddə 480, N 7, maddələr 589, 599; 2012, N 7, maddə 674, N 11, maddə 1062, N 12, maddə 1215; 2013, N 2, maddə 77, N 6, maddələr 616, 626, N 7, maddə 786, N 11, maddə 1265, N 12, maddə 1493; 2014, N 2, maddələr 90, 102, N 4, maddələr 328, 344, N 6, maddə 600, N 11, maddələr 1354, 1362; 2015, N 4, maddə 342, N 5, maddə 511, N 11, maddələr 1270, 1288; 2016, N 2, (II kitab), maddə 218, N 10, maddə 1607, N 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, N 5, maddə 751, N 12 (I kitab), maddələr 2232, 2267; 2018, N 5, maddələr 877, 882, N 7 (I kitab), maddə 1421, N 11, maddə 2235, N 12, (I kitab) maddə 2515; 2019, N 7, maddələr 1198, 1200, N 12, maddə 1898; Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.0.11-ci maddəyə "protestlərə" sözündən sonra ", habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə" sözləri əlavə edilsin;

1.2. 7.0.47-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.0.48-ci maddə əlavə edilsin:

"7.0.48. prosessual sənədlər - ərizə, şikayət, protest, vəsatət, etiraz, bildiriş, çağırış vərəqəsi, rəy, ekspert rəyi, qərar, hökm və bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada məhkəmə və ya cinayət prosesinin iştirakçıları tərəfindən tərtib edilən digər sənədlər.";

1.3. aşağıdakı məzmunda 40.5-ci maddə əlavə edilsin:

"40.5. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72 - 73-2-ci maddələrində nəzərdə tutulmuş cinayət əməlləri iştirakçılıqla törədildiyi hallarda həmin Məcəllənin 72-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinə əsasən zərərçəkmiş şəxsə dəymiş ziyan və dövlət büdcəsinə ödənişin iştirakçıların hər biri tərəfindən müəyyən pay üzrə ödənilməsi məhkəməyədək icraat zamanı

təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarı, məhkəmə icraatı zamanı isə məhkəmənin qərarı ilə həll olunur.";

1.4. 41-ci maddə üzrə:

1.4.1. 41.3-cü maddənin birinci cümləsinə "istisna edən" sözlərindən sonra "və bu Məcəllənin 40.3-cü və 40.4-cü maddələrində göstərilən cinayət təqibinin həyata keçirilməməsinə imkan verən" sözləri əlavə edilsin;

1.4.2. 41.3-cü maddənin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ittihamçısı bəraətverici əsaslar olmadıqda təqsirləndirilən şəxs barəsində ittihamdan müdafiə tərəfinin razılığı ilə imtina edir.";

1.4.3. 41.4-cü maddəyə "istisna edən" sözlərindən sonra "və cinayət təqibinin həyata keçirilməməsinə imkan verən" sözləri əlavə edilsin;

1.4.4. 41.5-ci maddəyə "çatdırır və" sözlərindən sonra "dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etmədiyi hallarda" sözləri əlavə edilsin;

1.4.5. 41.6-cı maddədə "40-cı" sözləri "40.2-ci" sözləri ilə əvəz edilsin;

1.5. 51-ci maddə üzrə:

1.5.1. aşağıdakı məzmunda 51.6-1-ci maddə əlavə edilsin:

"51.6-1. Məhkəmə iclasında sədrlik edən iclasların fasiləsiz audioyazısının aparılmasını təmin edir, cinayət prosesinin tərəflərini və cinayət prosesində iştirak edən digər şəxsləri audioyazının aparılması barədə xəbərdar edir. Məhkəmə iclasının protokolu məhkəmə iclasının audioyazısına uyğun tərtib edilir və audioyazı barədə məlumat məhkəmə iclasının protokolunda göstərilməklə elektron və ya digər məlumat daşıyıcılarında ona əlavə olunur. Məhkəmə iclasının protokolu və audioyazısı arasında ziddiyyət olduğu halda, məhkəmə iclasının audioyazısına üstünlük verilir.";

1.5.2. 51.7-ci maddənin ikinci cümləsinə "protokolla" sözündən sonra "və ona əlavə edilmiş audioyazı ilə" sözləri əlavə edilsin;

1.6. aşağıdakı məzmunda 51-1-ci və 51-2-ci maddələr əlavə edilsin:

**"Maddə 51-1. Cinayət mühakimə icraatının elektron qaydada aparılması**

51-1.1. Elektron qaydada cinayət mühakimə icraatı bu Məcəllə ilə müəyyən edilmiş prosessual qaydalara uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə aparılır.

51-1.2. Məhkəmə, cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən prosessual sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla müəyyən etdiyi cinayət mühakimə icraatında "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

51-1.3. "Elektron məhkəmə" informasiya sistemində cinayət prosesinin iştirakçılarının və cinayət prosesində iştirak edən digər şəxslərin iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq, prosessual sənədləri göndərmək və qəbul etmək imkanlarını təmin edən elektron kabinet yaradılır.

51-1.4. "Elektron məhkəmə" informasiya sistemində elektron sənəd dövriyyəsi üçün gücləndirilmiş elektron imzadan və sertifikatlaşdırılmış elektron imza vasitələrindən istifadə edilir.

51-1.5. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada elektron sənəd formasında tərtib edilmiş prosessual sənədlər kağız daşıyıcıda olan sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.

51-1.6. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə cinayət prosesinin iştirakçıları və cinayət prosesində iştirak edən digər şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bu Məcəlləyə əsasən həmin şəxslərə verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları

onların elektron kabinetlərində yerləşdirir. Bu barədə həmin şəxslərə "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) məlumat verilir.

51-1.7. Bu Məcəllənin 51-1.6-cı maddəsində nəzərdə tutulmuş şəxslər bu Məcəlləyə əsasən məhkəməyə təqdim etmək hüququna malik olduqları prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə göndərə bilərlər.

51-1.8. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə hakim bu Məcəlləyə müvafiq olaraq dövlət ittihamçısına verilməsi nəzərdə tutulmuş prosessual sənədləri və digər məlumatları onun həmin sistemdə yaradılmış elektron kabinetində yerləşdirir və bu barədə ona həmin sistem vasitəsilə elektron qaydada məlumat verir.

51-1.9. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə dövlət ittihamçısı bu Məcəllənin 84.6-cı maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər üzrə elektron sənəd formasında tərtib edilmiş prosessual sənədləri "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəməyə təqdim edə bilər.

51-1.10. Bu Məcəllənin 51-1.7 - 51-1.9-cu maddələrində nəzərdə tutulmuş qaydada "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə təqdim edilmiş sənədlərin digər qaydada verilməsi məhkəmə tərəfindən tələb oluna bilməz.

51-1.11. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə, məhkəmə, bu Məcəlləyə müvafiq olaraq qəbul etdiyi hökm, qərar və digər prosessual sənədləri elektron sənəd formasında tərtib edərək bu Məcəllədə həmin prosessual sənədlər üçün müəyyən edilmiş müddətlərdə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirir.

51-1.12. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmənin yekun qərarının nəticəvi hissəsi barədə məlumat həmin qərarın elan edildiyi gün hakimin elektron imzası ilə təsdiq edilməklə "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.

**Maddə 51-2. Cinayət mühakimə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi**

51-2.1. Cinayət mühakimə icraatında prosessual hərəkətlər aşağıdakı hallarda şübhəli və ya təqsirləndirilən şəxs, mülki iddiaçı, mülki cavabdeh, zərər çəkmiş şəxs, zərər çəkmiş şəxsin və təqsirləndirilən şəxsin hüquqi varisi, xüsusi ittihamçı, onların qanuni nümayəndələri və nümayəndələri, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, şahid, ekspert, mütəxəssis, tərcüməçi, yaxud məhkumun bilavasitə iştirakı olmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər:

51-2.1.1. bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin həyatı və sağlamlığı üçün real təhdidlər olduqda onların təhlükəsizliyinin təmin edilməsi, habelə onlara kənar təsirlərin qarşısının alınması zərurəti yarandıqda;

51-2.1.2. səhhətinin vəziyyəti, yaxud şübhəli, təqsirləndirilən şəxs və ya məhkum istisna olmaqla bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən başqa şəxslərlə bağlı digər üzrlü səbəblər onların müvafiq icraatda bilavasitə iştirakını qeyri-mümkün etdikdə;

51-2.1.3. yetkinlik yaşına çatmayan şəxsin mənafeyinin qorunması zərurəti yarandıqda;

51-2.1.4. təbii və ya texnogen qəzalar, epidemiya, fövqəladə vəziyyət və ya qarşısıalınmaz qüvvənin təsiri nəticəsində bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər müvafiq icraatda bilavasitə iştirak edə bilmədikdə.

51-2.2. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllədə nəzərdə tutulmuş qaydada həyata keçirilməlidir.

51-2.3. Məhkəmə icraatı zamanı prosessual hərəkətlər cinayət prosesi tərəflərinin vəsatəti və ya bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən digər şəxslərin müraciəti, yaxud məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin əsaslandırılmış qərarı əsasında video-

konfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Məhkəmə bir və ya bir neçə prosessual hərəkətin, habelə icraatın tamamilə və ya qismən videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərar qəbul edir.

51-2.4. İbtidai araşdırma zamanı bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslərin videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilməsi müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə həyata keçirilir. Bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxslər dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə keçirilməsi barədə vəsatət verə bilər. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə dindirilmiş şəxs cinayət prosesi tərəflərinin vəsatəti ilə təkrarən bilavasitə dindirilə bilər.

51-2.5. Şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun iştirakı ilə prosessual hərəkətlər həmin şəxsin razılığı olduqda videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilir. Bu Məcəllənin 51-2.1.2-ci maddəsində nəzərdə tutulmuş halda şəxsin səhhətinin vəziyyəti ilə əlaqədar onun prosessual hərəkətin həyata keçirilməsində bilavasitə iştirakının məqsədəuyğun hesab edilməməsinə dair tibbi rəy olduqda, habelə bu Məcəllənin 51-2.1.4-cü maddəsində nəzərdə tutulmuş hallarda məhkəmənin əsaslandırılmış qərarı ilə prosessual hərəkətlər şübhəli və ya təqsirləndirilən şəxsin, yaxud məhkumun razılığı alınmadan videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilə bilər.

51-2.6. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərdə iştirak edən şəxslərə bu Məcəllə ilə nəzərdə tutulmuş hüquqlardan istifadə etmək və vəzifələri yerinə yetirmək üçün müvafiq şərait yaradılmalıdır.

51-2.7. Prosessual hərəkətlər videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirildikdə tətbiq edilən texniki vasitələr səsin və görüntünün keyfiyyətini və real vaxt rejimində ötürülməsini, cinayət mühakimə icraatının aşkarlığı və digər əsas prinsip və şərtlərinə riayət edilməsini, habelə informasiya təhlükəsizliyini təmin etməlidir.

51-2.8. Videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilən prosessual hərəkətlərin videoyazısı aparılmalı, prosessual hərəkətlərin nəticəsinə dair videoyazıya uyğun olaraq protokol tərtib edilməli və videoyazı elektron daşıyıcıda cinayət işinə əlavə edilməlidir.

51-2.9. Prosessual hərəkətlər bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirildikdə müdafiəçi və ya nümayəndənin videokonfrans əlaqənin yaradılması zamanı olacağı yer təmsil olunan şəxsin seçiminə əsasən müəyyən edilir.

51-2.10. Məhkəmə prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müvafiq məhkəmə sədrinin vasitəsi ilə həmin məhkəmənin aparatına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.

51-2.11. Bu Məcəllənin 51-2.4-cü maddəsində nəzərdə tutulmuş qərarı qəbul etmiş müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror dindirmənin videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi barədə qərarın icrasının təşkil edilməsini bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin olduğu yer üzrə müstəntiqə və ya təhqiqat orqanının əməkdaşına, azadlıqdan məhrum etmə və ya həbs yerlərində saxlanılan şəxs barəsində həbs və ya cəzaçəkmə yerinin müdiriyyətinə, hərbi qulluqçu barəsində isə komandanlığa həvalə edir.

51-2.12. Prosessual hərəkətin videokonfrans əlaqə sistemindən istifadə edilməklə icrasının təşkili həvalə edildiyi şəxs bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsi bu Məcəllə ilə müəyyən edilmiş qaydada yanına çağırır və ya onun olduğu yerə gəlir. Daha

sonra bu Məcəllənin 51-2.1-ci maddəsində göstərilən şəxsin şəxsiyyətini müəyyən edir, videokonfrans əlaqə sistemini yaradan texniki vasitənin işini təmin edir, bu hərəkətləri protokollaşdırır.

51-2.13. Cinayət prosesi iştirakçısının Azərbaycan Respublikasının hüdudlarından kənarda olması səbəbindən onun videokonfrans əlaqə sistemi vasitəsilə dindirilməsi zərurəti yarandıqda, bu haqda müvafiq olaraq müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qəbul etdiyi qərar icra olunması üçün hüquqi yardımın göstərilməsi qaydasında xarici dövlətin müvafiq dövlət qurumuna göndərilir.";

1.7. 74.9-cu maddəyə "511.1" rəqəmlərindən sonra ", 511-1.1" rəqəmləri əlavə edilsin;

1.8. 78.4-cü maddədə "cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara apellyasiya şikayəti və ya protesti üzrə" sözləri "birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə, habelə xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat qaydasında verilmiş müraciətlərə" sözləri ilə əvəz edilsin;

1.9. 84-cü maddə üzrə:

1.9.1. aşağıdakı məzmunda 84.6.9-1-ci maddə əlavə edilsin:

"84.6.9-1. şəxsə qarşı irəli sürülmüş ittihamla müqayisədə onun əməlinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsini və ya şəxsə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılmasını təklif etmək;";

1.9.2. 84.8-ci maddənin dördüncü cümləsində "Prokurorun" sözü "Yuxarı prokurorun" sözləri ilə əvəz edilsin;

1.10. 86.4.2-ci maddədə "müayinə (şəxsi müayinə)" sözləri ", şəxsi axtarış, şəxsi müayinə, ifadələrin yerində yoxlanılması, tədqiqat üçün nümunələrin götürülməsi," sözləri ilə əvəz edilsin;

1.11. 87.6.9-cu, 89.4.7-ci, 91.5.32-ci, 93.4.7-ci və 104.2.5-ci maddələrdə "ilə tanış olmaq və ona" sözləri "və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola" sözləri ilə əvəz edilsin;

1.12. 92-ci maddə üzrə:

1.12.1. 92.3.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.3.16-cı maddə əlavə edilsin:

"92.3.16. məhkəmə baxışı bu Məcəllədə nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsin iştirakı olmadan keçirildikdə.";

1.12.2. 92.4.7-ci maddədə "maddəsində" sözü "və 92.3.16-cı maddələrində" sözləri ilə əvəz edilsin;

1.12.3. 92.9.8-ci maddədə ", habelə məhkəmə iclasının protokolları" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

1.12.4. 92.12-ci maddədə "92.3.13-cü" sözləri "92.3.13 və 92.3.16-cı" sözləri ilə əvəz edilsin, üçüncü cümlə dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"İşə məhkəmədə baxılarkən şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçidən imtina etdikdə bu barədə məlumat məhkəmə iclasında elan olunur.";

1.13. 95.6.8-ci, 96.6.4-cü və 97.6.6-cı maddələrə "protokolunun" sözündən sonra "və ona əlavə edilmiş audioyazının" sözləri əlavə edilsin;

1.14. 98.2.2-ci maddəyə "halları" sözündən sonra "məhkəmə iclasının audioyazısına uyğun olaraq" sözləri əlavə edilsin;

1.15. 99.6.2-ci maddəyə "protokolunun" sözündən sonra "və ona əlavə edilmiş audioyazının" sözləri əlavə edilsin;

1.16. 101.5.9-cu maddədə ", habelə məhkəmə iclasının protokolu" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

1.17. 102.6.7-ci maddədə ", habelə məhkəmə iclasının protokolları" sözləri "protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı" sözləri ilə əvəz edilsin;

1.18. 130.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Həmin əşyalara baxış hakim tərəfindən keçirildikdə onun nəticələri məhkəmə iclasında elan olunur.";

1.19. 183.1-ci maddədə "istintaqı" sözü "baxışında cinayət prosesi tərəflərinin çıxışı" sözləri ilə əvəz edilsin;

1.20. 204.2-ci maddənin ikinci, üçüncü və dördüncü cümlələri müvafiq olaraq üçüncü, dördüncü və beşinci cümlələr hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Belə məlumat məhkəmə baxışı zamanı verildikdə, həmçinin məhkəmə iclasında elan olunur.";

1.21. 214-cü maddə üzrə:

1.21.1. 214.3-cü maddədə "234, 236, 238 - 247, 264" rəqəmləri "234 - 236, 238 - 247, 260 - 264" rəqəmləri ilə əvəz edilsin;

1.21.2. 214.3.2-ci maddədə "tutmaq, onun, zərər çəkmiş şəxsin, şahidin, mülki iddiaçının, mülki cavabdehin, şahidlərin dindirilməsi, axtarış, müayinə (şəxsi müayinə) və götürmə kimi" sözləri "tutur və bu Məcəllənin 86.4.2-ci maddəsində göstərilən təxirəsalınmaz" sözləri ilə əvəz edilsin;

1.22. 215-ci maddə üzrə:

1.22.1. 215.3.1-ci maddədən "318-2," rəqəmləri çıxarılsın;

1.22.2. 215.3.2-ci maddəyə "miqrasiya" sözündən sonra ", fövqəladə hallar" sözləri əlavə edilsin;

1.23. 226.1-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Onlar, həmçinin çağırışın məzmununun yazılı ötürülməsini təmin edən rabitə vasitələrindən istifadə edilməklə, o cümlədən elektron qaydada çağırıla bilərlər.";

1.24. 235.3-cü maddəyə "Şahidlər" sözündən sonra "və zərərçəkmiş şəxslər" sözləri əlavə edilsin;

1.25. 282-ci maddə üzrə:

1.25.1. 282.1-ci maddəyə "prokurora" sözündən sonra ", yuxarı prokurora" sözləri əlavə edilsin;

1.25.2. 282.2-ci maddəyə "imtina etməsindən" sözlərindən sonra "yuxarı prokurora və" sözləri əlavə edilsin;

1.26. 292.1-ci maddəyə "göndərir" sözündən sonra "və gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş ittiham aktını "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

1.27. 297.0.2-ci maddəyə "göndərmək" sözündən sonra "və gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş yekun protokolu "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirmək" sözləri əlavə edilsin;

1.28. 305.1-ci maddədə "maddəsində" sözü ", habelə 40.3-cü və 40.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

1.29. 311.4-cü maddədə "311.2-ci maddəsində" sözləri "51-2-ci və 311.2-ci maddələrində" sözləri ilə əvəz edilsin;

1.30. 326-cı maddə üzrə:

1.30.1. 326.8.3-cü maddədə "göstərilməlidir" sözü "göstərilməli və məhkəmə iclasında elan olunmalıdır" sözləri ilə əvəz edilsin;

1.30.2. 326.9.1-ci maddəyə "oxunur" sözündən sonra ", audio, video və digər yazan texniki vasitələrdən istifadə edilməklə qeydə alınmış ifadələr isə səsləndirilir və nümayiş etdirilir" sözləri əlavə edilsin;

1.31. 328.3-cü maddəyə "izahları" sözündən sonra ", bu Məcəllənin 51-2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla," sözləri əlavə edilsin;

1.32. 330-cu maddə üzrə:

1.32.1. maddənin adına "dindirilməsi" sözündən sonra "və ifadələrinin elan edilməsi" sözləri əlavə edilsin;

1.32.2. 330.1-ci maddədə "dindirilir" sözü "dindirilir, habelə onun ifadələrinin elan edilməsinə bu Məcəllənin 329-cu maddəsində göstərilən qaydada yol verilir" sözləri ilə əvəz edilsin;

1.32.3. 330.5-ci maddə ləğv edilsin;

1.33. 347-ci maddə üzrə:

1.33.1. 347.1-ci maddəyə "məsələlər" sözündən sonra "və onların hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsinə uyğunluğu" sözləri əlavə edilsin;

1.33.2. 347.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Müşavirə protokolu və hakimin xüsusi rəyi elektron formada kodlaşdırılmaqla "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilir.";

1.34. 356.1-ci maddədə "həmin qərarı" sözləri "həmin qərarın giriş və nəticəvi hissəsini" sözləri ilə əvəz edilsin;

1.35. 358.1.1-ci maddədə "və onun nümayəndəsinə" sözləri ", mülki iddiaçıya, mülki cavabdehə və onların nümayəndələrinə" sözləri ilə əvəz edilsin;

1.36. 384-cü maddə üzrə:

1.36.1. 384.1-ci maddədə "olduğu andan" sözləri "olunduğu, bu Məcəllənin 384.2-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi andan" sözləri ilə əvəz edilsin;

1.36.2. 384.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 384.1.12-ci maddə əlavə edilsin:

"384.1.12. apellyasiya şikayətinin və ya apellyasiya protestinin verilməsi müddətinin bərpa olunmasına dair vəsatətin rədd edilməsi barədə qərar çıxarıldıqda.";

1.37. 391.6.4-cü maddəyə "protokolu" sözündən sonra "və məhkəmə iclasının audioyazısı" sözləri əlavə edilsin;

1.38. 407-ci maddə üzrə:

1.38.1. 407.1-ci maddədə "qərarı" sözü "qərarının giriş və nəticəvi hissəsi elan edilir. Həmin qərar" sözləri ilə əvəz edilsin;

1.38.2. 407.1.1-ci maddədə "onun nümayəndəsinə" sözləri "mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələrinə" sözləri ilə əvəz edilsin;

1.39. 408.3-cü maddədə "408.2.7" rəqəmləri "408.2.5" rəqəmləri ilə əvəz edilsin;

1.40. 410-cu maddə üzrə:

1.40.1. 410.1-ci maddəyə "protesti" sözündən sonra "onu vermək hüququna malik olan şəxslər tərəfindən" sözləri əlavə edilsin;

1.40.2. 410.1.1-ci maddədə "və 520.7-ci" sözləri ", 411.5, 520.7 və 524.8-ci" sözləri ilə, "vaxtdan" sözü ", bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən" sözləri ilə əvəz edilsin;

1.40.3. 410.1.2-ci maddədə "6 (altı)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.40.4. 410.1.3-cü maddədə "12 (on iki)" sözləri "6 (altı)" sözləri ilə əvəz edilsin;

1.40.5. 410.1.4-cü maddədə "gündən 18 (on səkkiz)" sözləri ", bu Məcəllənin 410.1-1-ci maddəsində nəzərdə tutulmuş halda isə həmin şəxsə verildiyi gündən 12 (on iki)" sözləri ilə əvəz edilsin;

1.40.6. aşağıdakı məzmunda 410.1-1-ci maddə əlavə edilsin:

"410.1-1. Azadlıqdan məhrum etmə növündə cəza çəkən məhkumun apellyasiya instansiyası məhkəməsinin hökmündən (qərarından) kassasiya şikayətinin verilməsi üçün bu Məcəllənin 410.1-ci maddəsində nəzərə tutulmuş müddətlər hökmün və ya müvafiq qərarın ona verildiyi tarixdən hesablanır.";

1.41. 411-ci maddə üzrə:

1.41.1. 411.1-ci maddədə "kassasiya instansiyası" sözləri "apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

1.41.2. 411.2-ci maddədə "Kassasiya" sözü "Apellyasiya" sözü ilə əvəz edilsin;

1.41.3. 411.2.2-ci maddəyə "hadisə" sözündən sonra "və ya həmin şəxsin iradəsindən asılı olmayan digər hal" sözləri əlavə edilsin;

1.41.4. 411.3-cü və 411.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"411.3. Kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi məsələsi apellyasiya instansiyası məhkəməsinin yekun qərar çıxarmış məhkəmə tərkibi (bu mümkün olmadıqda, digər hakimlərdən ibarət məhkəmə tərkibi) tərəfindən həll edilir. Belə vəsatətin baxılma vaxtı və yeri barədə vəsatəti qaldırmış şəxslərə lazımi qaydada məlumat verilir. Həmin şəxslərin məhkəmə iclasına gəlməməsi vəsatətə baxılmasına mane olmur. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.

411.4. Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti təmin etdikdə, bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayətini və ya kassasiya protestini cinayət işi, məhkəməyədək

sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir.";

1.41.5. aşağıdakı məzmunda 411.5-ci və 411.6-cı maddələr əlavə edilsin:

"411.5. Apellyasiya instansiyası məhkəməsi kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpa olunması haqqında vəsatəti rədd etdikdə, bu qərardan apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə kassasiya şikayəti və ya kassasiya protesti verilə bilər.

411.6. Bu Məcəllənin 411.5-ci maddəsində nəzərdə tutulmuş qərardan şikayət və ya protest verildiyi halda apellyasiya instansiyası məhkəməsi onu cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərir. Kassasiya instansiyası məhkəməsinin hakimi kassasiya şikayəti və ya kassasiya protesti verilməsi müddətini bərpa etdikdə bu Məcəllənin 418.2-ci maddəsində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirir. Kassasiya instansiyası məhkəməsinin kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməməsi barədə qərarı qətidir və ondan şikayət və ya protest verilə bilməz. Vəsatətlə əlaqədar qəbul edilmiş qərarın surəti hər bir halda kassasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 409-cu maddəsində göstərilən şəxslərə göndərilir.";

1.42. 412-ci maddə üzrə:

1.42.1. 412.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"412.1. Kassasiya şikayəti və ya kassasiya protesti apellyasiya instansiyası məhkəməsi vasitəsilə verilir. Kassasiya şikayəti və ya kassasiya protesti birinci instansiya məhkəməsinə verildikdə şikayət və ya protest cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə apellyasiya instansiyası məhkəməsinə göndərilir. Kassasiya şikayəti və ya kassasiya protesti kassasiya instansiyası məhkəməsinə verildikdə şikayət və ya protest apellyasiya instansiyası məhkəməsinə göndərilir. Bu maddədə göstərilən hər üç halda apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 417.1-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdən sonra kassasiya şikayəti və ya kassasiya protestinin apellyasiya instansiyası məhkəməsinə daxil olduğu vaxtdan 23 (iyirmi üç) gündən gec olmayaraq kassasiya şikayəti və ya kassasiya protesti cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materialları ilə birlikdə kassasiya instansiyası məhkəməsinə göndərilir.";

1.42.2. 412.3-cü maddənin birinci cümləsi ləğv edilsin, ikinci cümlədən "həmçinin" sözü çıxarılsın;

1.42.3. 412.6-cı maddədə "şikayətindən və ya kassasiya protestindən imtina haqqında apellyasiya instansiyası məhkəməsinə verilmiş ərizə" sözləri "şikayətinin və ya kassasiya protestinin geri götürülməsi haqqında müraciət" sözləri ilə əvəz edilsin;

1.43. 413.1.4-cü maddəyə "qərarın" sözündən sonra "tarixi," sözü əlavə edilsin;

1.44. 414.2-ci maddədən "və ya xüsusi ittiham qaydasında şikayət" sözləri çıxarılsın;

1.45. 415-ci maddə üzrə:

1.45.1. 415.0-cı maddə 415.1-ci maddə hesab edilsin və həmin maddədə "Kassasiya instansiyası" sözləri "Apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

1.45.2. 415.0.1 - 415.0.4-cü maddələr müvafiq olaraq 415.1.1 - 415.1.4-cü maddələr hesab edilsin;

1.45.3. 415.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"415.1.3. kassasiya şikayətinin və ya kassasiya protestinin məzmununa dair bu Məcəllənin 413-cü maddəsinin tələblərinə riayət edilmədikdə;";

1.45.4. aşağıdakı məzmunda 415.2-ci maddə əlavə edilsin:

"415.2. Bu Məcəllənin 415.1-ci maddəsinin tələbləri yerinə yetirilmədikdə apellyasiya instansiyası məhkəməsi ilkin olaraq kassasiya şikayətinin və ya kassasiya protestinin hərə-

kətsiz saxlanılması barədə qərar çıxarır və öz qərarı ilə həmin tələblərin yerinə yetirilməsi üçün 10 (on) gündən 20 (iyirmi) günədək müddət təyin edir. Təyin edilmiş müddət ərzində həmin tələblər yerinə yetirilmədikdə, kassasiya şikayəti və ya kassasiya protesti verilməmiş hesab edilir və baxılmamış saxlanılır. Bu halda şəxs bu Məcəllənin 410-cu maddəsində göstərilən müddətlərdə yenidən kassasiya şikayəti və ya kassasiya protesti verə bilər.";

1.46. 417-ci maddə üzrə:

1.46.1. 417.1-ci və 417.2-ci maddələrdə "kassasiya instansiyası" sözləri "apellyasiya instansiyası" sözləri ilə əvəz edilsin;

1.46.2. 417.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"417.3. Kassasiya şikayətinə və ya kassasiya protestinə dair etirazlar apellyasiya məhkəməsi tərəfindən işə əlavə olunur, bu etirazlar iş kassasiya instansiyası məhkəməsinə göndərildikdən sonra daxil olduqda bilavasitə kassasiya instansiyası məhkəməsinə göndərilir.";

1.47. 418-ci maddə üzrə:

1.47.1. 418.2.2-ci maddədə "yetirilməsini təmin edir" sözləri "yetirilib-yetirilmədiyini müəyyən edir" sözləri ilə əvəz edilsin;

1.47.2. 418.2.3-cü və 418.4-cü maddələr ləğv edilsin;

1.47.3. 418.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"418.3. Kassasiya şikayətini və ya kassasiya protestini ilkin öyrənən hakim apellyasiya instansiyası məhkəməsi tərəfindən bu Məcəllənin 415.1-ci maddəsinin tələbləri, habelə kassasiya baxışının keçirilməsinə mane olduğu halda bu Məcəllənin 417.1-ci maddəsinin tələblərinin yerinə yetirilmədiyini müəyyən etdikdə cinayət işini, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarını və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın materiallarını apellyasiya instansiyası məhkəməsinə qaytarır.";

1.48. 421.1.1-ci maddədən "418.2.3," və "418.4," rəqəmləri çıxarılsın;

1.49. 432.6-cı maddəyə "icraata" sözündən sonra "bəraətverici əsaslar olmadan" sözləri əlavə edilsin;

1.50. 434.1-ci maddədə "şübhəli və təqsirləndirilən şəxs barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin" sözləri "təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsinə yalnız ona ağır və ya xüsusilə ağır cinayətin, 16 yaşına çatmış təqsirləndirilən şəxslərə isə həmçinin az ağır cinayətin zorakı üsulla və ya iki dəfədən çox" sözləri ilə əvəz edilsin;

1.51. 438.2-ci maddəyə "ağır" sözündən sonra "və xüsusilə ağır" sözləri əlavə edilsin;

1.52. aşağıdakı məzmunda 449.3.4-1 - 449.3.4-3-cü maddələr əlavə edilsin:

"449.3.4-1. şəxsin cinayət prosesinin iştirakçısı qismində tanınmasının rədd edilməsi;

449.3.4-2. şəxsin müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsi;

449.3.4-3. ibtidai araşdırma orqanı tərəfindən qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi;";

1.53. 473-cü maddədə "ilə tanış olmaq və ona" sözləri "və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq, protokola" sözləri ilə əvəz edilsin;

1.54. 476.0.1-ci maddəyə "göndərir" sözündən sonra ", gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

1.55. 480.5.1-ci maddəyə "təsdiq edir" sözlərindən sonra ", gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş həmin qərarı "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə həmin sistemə yerləşdirir" sözləri əlavə edilsin;

1.56. 487-4.0.5-ci maddədə "99-5.3" rəqəmləri "99-5.4" rəqəmləri ilə əvəz edilsin;

1.57. aşağıdakı məzmunda 511-1-ci maddə əlavə edilsin:

**"Maddə 511-1. Zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə**

511-1.1. Məhkumun Azərbaycan Respublikası Cinayət

Məcəlləsinin 80-1-ci maddəsinə müvafiq olaraq zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad edilməsi haqqında məsələyə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.

511-1.2. Bu Məcəllənin 511-1.1-ci maddəsində göstərilən qaydada cəza çəkməkdən azad etmə zərərçəkmiş şəxsin və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-1.2 və 73-2.2-ci maddələri ilə müəyyən edilmiş məbləğin dövlət büdcəsinə ödənilməsini təsdiq edən müvafiq sənəd nəzərə alınmaqla tətbiq edilir. Zərərçəkmiş şəxs və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi olmadığı hallarda həmin şəxslərin və ya onların qanuni nümayəndələrinin məhkəmə iclasında iştirakı məcburidir.";

1.58. 521-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 521. Əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərarların xarici ölkədə icrası

521.1. Xarici ölkədə yerləşən əmlakın müsadirəsi barədə Azərbaycan Respublikasında çıxarılmış hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindiyi tarixdən 5 gün müddətində həmin hökm və ya digər yekun qərarı çıxarmış məhkəmə tərəfindən müsadirə olunmalı əmlakın hüquqi yardım çərçivəsində xarici ölkədə müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılmasının təmin edilməsi məqsədilə cinayət işi üzrə bütün materiallarla birlikdə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilir.

521.2. Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici ölkədə yerləşən əmlakın müsadirə edilməsi və həmin əmlakın, yaxud onun dəyərinin ölkəyə qaytarılması məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, o cümlədən əmlakın yerləşdiyi sorğu edilən ölkənin qanunvericiliyinə əsasən tələb olunan zəruri tədbirləri görməlidir.";

1.59. aşağıdakı məzmunda LIX fəsil əlavə edilsin:

**"LIX fəsil**
**Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat**

**Maddə 522. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması qaydası**

522.1. Xarici dövlətlərin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması bununla bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə mövcud olduğu halda həyata keçirilir. Belə beynəlxalq müqavilə olmadıqda xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları qarşılıqlılıq prinsipinə riayət ediləcəyinə dair həmin dövlətin müvafiq səlahiyyətli orqanı tərəfindən təminat verildiyi halda tanına bilər.

522.2. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üçün xarici dövlətin müvafiq səlahiyyətli orqanı Azərbaycan Respublikasının Baş Prokurorluğuna və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanına sorğu ilə rəsmi müraciət edir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğunun daxil olduğu müvafiq icra hakimiyyəti orqanı və ya digər dövlət orqanları daxil olmuş belə sorğunu xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının bu Məcəllənin 522 - 525-ci maddələri ilə müəyyən edilmiş qaydada tanınması üzrə icraatın təmin edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir.

522.3. Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici dövlətin müvafiq səlahiyyətli orqanının rəsmi müra-

ciətinin bu Məcəllənin 523-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verib-verməməsini araşdırır və tələblərə riayət edilmədikdə əlavə məlumatların təqdim edilməsinə dair müraciət edir.

522.4. Azərbaycan Respublikasının Baş Prokurorluğu aşağıdakı hallardan hər hansı biri mövcud olduqda xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə bu Məcəllənin 522.6-cı maddəsində nəzərdə tutulmuş qaydada təqdimat verir:

522.4.1. barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxs son 12 ayın əksər hissəsini Azərbaycan Respublikasında yaşamışdırsa;

522.4.2. barəsində xarici dövlətlərin məhkəmələrinin hökmünün və ya digər yekun qərarının çıxarıldığı şəxsin mənşə ölkəsi Azərbaycan Respublikasıdır və Azərbaycan Respublikası qeyd edilən hökmün və ya qərarın icrası niyyətindədirsə;

522.4.3. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası məhkum edilmiş şəxsin sosial reabilitasiya imkanlarını gücləndirirsə;

522.4.4. barəsində xarici dövlətlərin məhkəmələrinin azadlıqdan məhrum etmə ilə bağlı hökm və ya digər yekun qərarının çıxarıldığı şəxs Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə ilə bağlı cəza çəkirsə.

522.5. Azərbaycan Respublikasının Baş Prokurorluğu bu Məcəllənin 522.4-cü maddəsində nəzərdə tutulmuş hallardan ən azı biri mövcud olmadıqda rəsmi müraciəti baxılmamış saxlayır və bu barədə sorğu verən xarici dövlətə məlumatın verilməsini təmin edir.

522.6. Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimatı, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxsin sonuncu yaşayış yeri üzrə, bu məlum olmadıqda isə hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin sonuncu yaşayış yeri üzrə, hökmün və ya digər yekun qərarın icrası əmlakla bağlı olduqda isə həmin əmlakın yerləşdiyi yer üzrə apellyasiya instansiyası məhkəməsinə verir.

**Maddə 523. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətin məzmunu**

523.1. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair rəsmi müraciətdə aşağıdakılar göstərilməlidir:

523.1.1. Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının adı;

523.1.2. xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

523.1.3. tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın xarici dövlətin məhkəməsi tərəfindən təsdiq edilmiş surəti;

523.1.4. tanınması xahiş edilən hökmün və ya digər yekun qərarın qanuni qüvvəyə minməsini təsdiq edən sənəd;

523.1.5. barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxsin adı, atasının adı, soyadı və yaşayış yeri haqqında məlumatlar;

523.1.6. barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyat nömrəsi, təsisçiləri və qanuni təmsilçiləri barədə məlumatlar;

523.1.7. cinayət tərkibinin əlamətləri, faktların təsviri və əməlin tövsifi, məhkum olmuş şəxsin əleyhinə olan sübutlar;

523.1.8. xarici dövlətin müvafiq cinayət qanununun mətni;

523.1.9. müsadirə edilməli olan əmlak mövcud olduqda onun barəsində ətraflı məlumat və onun müfəssəl təsviri, yerləşdiyi yer, əmlakı saxlayan, sahiblik edən, ondan istifadə edən şəxslər haqqında və əmlakın məhkum olunmuş şəxsə aidiyyəti barəsində ətraflı məlumat;

523.1.10. cinayət nəticəsində vurulmuş ziyanın məbləği;

523.1.11. sorğu olunan iş üzrə əmlak üzərinə həbs qoyulması da daxil olmaqla əvvəllər hüquqi yardım göstərilmişdirsə, Azərbaycan Respublikasının hüquqi yardım göstərmiş orqanı və göstərilmiş hüquqi yardım haqqında ətraflı məlumat;

523.1.12. Azərbaycan Respublikasının ərazisindən kənarda şəxsə məxsus olduğu məlum olan bütün başqa əmlak barəsində qısa məlumat.

523.2. Əmlakın müsadirə edilməsi xahişi ilə rəsmi müraciətə məhkumun və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərin Azərbaycan Respublikasında aparılan icraat və çıxarılacaq qərar barəsində məlumatlandırılacağına dair öhdəlik məktubu əlavə edilməlidir.

**Maddə 524. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata baxılması qaydası**

524.1. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınmasına dair təqdimata, bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla açıq məhkəmə iclasında baxılır.

524.2. Məhkəmə iclasının vaxtı və yeri barədə Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslərə və ya hökmün və qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (onlar məlum olduqda) məlumat verilməlidir.

524.3. Bildiriş vərəqəsinin maraqlı şəxslərə verilməsi barədə məhkəmədə məlumat olarsa, həmin şəxsin üzrlü səbəblər olmadan məhkəməyə gəlməməsi təqdimata baxılmasına mane olmur. Əgər şəxs təqdimata baxılmasının başqa vaxta keçirilməsi barədə xahişlə məhkəməyə müraciət edərsə və həmin xahiş məhkəmə tərəfindən üzrlü hesab edilərsə, məhkəmə işə baxılmasını başqa vaxta keçirir və müraciət etmiş şəxsi yeni məhkəmə baxışının vaxtı barədə xəbərdar edir.

524.4. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə təqdimata baxılmasının yeri və vaxtı haqqında, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxslər, habelə həmin hökmün və ya qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər bilavasitə və ya sorğu edən dövlət vasitəsilə məlumatlandırılır.

524.5. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikası ərazisində tanınmasından aşağıdakı hallarda imtina edilir:

524.5.1. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə zidd olduqda;

524.5.2. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının qəbul edilməsi zamanı şəxsin minimal hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququ təmin edilmədikdə;

524.5.3. xarici dövlətlərin məhkəmələrinin hökmləri və ya digər yekun qərarları sorğu edən ölkənin qanunvericiliyinə əsasən qüvvəyə minmədikdə və ya onun mübahisələndirilməsi vasitələri tükənmədikdə;

524.5.4. "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikası Qanununun 3.1-ci maddəsi ilə nəzərdə tutulmuş hallar mövcud olduqda;

524.5.5. sorğu edilən şəxs barəsində eyni əməl üzrə Azərbaycan Respublikasının cinayət təqibi orqanının cinayət işinin xitam olunması və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərarı, Azərbaycan Respublikası məhkəmələrinin qanuni qüvvəyə minmiş hökm və ya yekun qərarı olduqda və ya həmin şəxs barəsində həmin əməl üzrə cinayət təqibi aparıldıqda;

524.5.6. əmlakın müsadirə edilməsi ilə bağlı xarici dövlətin səlahiyyətli orqanının sorğusunda və ona əlavə edilən xarici dövlətlərin məhkəmələrinin hökmlərində və ya digər yekun qərarlarında əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi müsadirə edilməli olan digər əmlak olmasına dair sübutlar olmadıqda;

524.5.7. cinayət sorğu edən

dövlətin hüdudlarından kənarda törədildikdə;

524.5.8. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının Azərbaycan Respublikasında icrası qeyri-mümkün olduqda;

524.5.9. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının sorğu edən dövlətin müvafiq səlahiyyətli orqanları tərəfindən icra edilməsi mümkün olduqda;

524.5.10. xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlılıq prinsipinə riayət olunmadıqda;

524.5.11. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan digər hallarda.

524.6. Məhkəmə iclasda iştirak edən şəxsləri dinlədikdən sonra xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tam və ya qismən tanınması, yaxud bundan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edir. Həmin qərar dərhal qüvvəyə minir. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və icrasına dair qərar Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada icra edilir.

524.7. Qərarın surəti onun çıxarıldığı gündən 3 gün müddətində Azərbaycan Respublikasının Baş Prokurorluğuna, habelə barəsində qərarın çıxarıldığı şəxsə və ya onun nümayəndəsinə, hökmün və ya digər yekun qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslərə (məlum olduqda) bilavasitə və ya sorğu edən xarici dövlət vasitəsilə göndərilir.

524.8. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması və ya bundan imtina edilməsi barədə apellyasiya instansiyası məhkəməsinin qərarından Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini, barəsində hökmün və ya digər yekun qərarın çıxarıldığı şəxs, habelə qərarın tanınmasının hüquq və mənafelərinə təsir göstərə biləcəyi digər maraqlı şəxslər həmin qərarı aldığı vaxtdan 1 (bir) ay müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət və ya protest verə bilərlər.

**Maddə 525. Əmlakın müsadirəsi barədə rəsmi müraciətə baxılmasının xüsusiyyətləri**

525.1. Əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərar yalnız həmin qərarda nəzərdə tutulmuş əmlak Azərbaycan Respublikası ərazisində yerləşdikdə tanınır.

525.2. Azərbaycan Respublikasının milli, tarixi və mədəni irsini təşkil edən əşyalara münasibətdə əmlakın müsadirəsi barədə xarici dövlətlərin məhkəməsi tərəfindən çıxarılmış qərarlar tanına bilməz.

525.3. Əmlakın müsadirəsi barədə qərarın icrasına dair sorğu bu Məcəllənin 523.1.9-cu maddəsinin tələblərinə cavab vermirsə və Azərbaycan Respublikasında həyata keçirilən cinayət mühakimə icraatına xələl yetirə bilərsə, sorğu edən tərəfə məlumat verilməklə müsadirə qərarının icrası təxirə salına bilər. Bu barədə xarici dövlətin müvafiq səlahiyyətli orqanına məlumat verilir.

525.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, müsadirə edilmiş əmlakın və ya onun dəyərinin məhkəmə və əmlakın saxlama məsrəfləri çıxıldıqdan sonra əlli faizi sorğu edən dövlətə qaytarılır, qalan hissəsi isə dövlət nəfinə keçirilir.".

**Maddə 2.** Keçid müddəaları

2.1. Bu Qanun 2020-ci il iyul ayının 15-dən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.40.3 - 1.40.5-ci maddələri apellyasiya instansiyası məhkəməsinin bu Qanun qüvvəyə mindikdən sonra çıxarılmış yekun qərarlarına münasibətdə tətbiq olunur.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 25 iyun 2020-ci il*
*N 140-VIQD*

## "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli 268 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, "Elektron məhkəmə" informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, "Elektron məhkəmə" informasiya sisteminin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsünlər.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, "Elektron məhkəmə" informasiya sisteminin Azərbaycan Respublikasının Baş Prokurorluğunda tətbiq olunan informasiya sistemi ilə inteqrasiyasını təmin etsinlər.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Təhsil Nazirliyinə, Dövlət Sərhəd Xidmətinə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Dövlət İmtahan Mərkəzinə, İpoteka və Kredit Zəmanət Fonduna, Milli Depozit Mərkəzinə, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə, "Azəriqaz" İstehsalat Birliyinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına, İcbari Sığorta Bürosuna, Azərbaycan Kredit Bürosuna tövsiyə edilsin ki, bu Fərmanla təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"nin 11.2-ci bəndində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsini təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikası Prezidentinə məlumat versinlər.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birgə "Elektron məhkəmə" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsünlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 iyun 2020-ci il.*
*N 1043*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

## "Elektron məhkəmə" informasiya sistemi haqqında

# ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Elektron məhkəmə" informasiya sisteminin (bundan sonra - İnformasiya sistemi) formalaşdırılmasının, aparılmasının, digər qurumların informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə inteqrasiyasının, habelə İnformasiya sistemi ilə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. İnformasiya sistemi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, "Fərdi məlumatlar haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" (bundan sonra - Qaydalar) və digər normativ hüquqi aktlar əsasında fəaliyyət göstərir.

1.3. İnformasiya sisteminin tətbiqi insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinə, məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəliliyinin və şəffaflığının artırılmasına, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlığın və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

1.4. İnformasiya sisteminin saxlanması, fəaliyyəti və inkişaf etdirilməsi üçün zəruri xərclər dövlət büdcəsindən ayrılan və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hesabına daxil olan vəsait, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.5. İnformasiya sisteminin istifadəçiləri iştirakçısı olduqları məhkəmə işləri barədə məlumatları, İnformasiya sisteminin iştirakçıları isə xidməti vəzifələrinin icrası ilə bağlı məlumatları İnformasiya sistemindən ödənişsiz əldə edirlər.

1.6. İnformasiya sisteminin formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına və arxivləşdirilməsinə dair bu Əsasnamə ilə tənzimlənməyən digər məsələlər Qaydalara uyğun olaraq həll edilir.

**2. Əsas anlayışlar**

2.1. Bu Əsasnamədə istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. istifadəçi - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada İnformasiya sistemindən informasiya əldə etmək və ya ötürmək hüququ verilmiş dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər;

2.1.2. iştirakçı - hakimlər və məhkəmə aparatı işçiləri;

2.1.3. sahib - normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada İnformasiya sistemi üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə sistemin aparılmasını təmin edən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi;

2.1.4. operator - sahibin normativ hüquqi aktlarla müəyyən edilən həcmdə və şərtlərlə İnformasiya sisteminin

fəaliyyətinin həyata keçirilməsi üzrə hüquq və vəzifələrini həvalə etdiyi struktur bölmə;

2.1.5. elektron kabinet - istifadəçinin özü barəsindəki məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirməsini, xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini, həmçinin sahib və operator ilə qarşılıqlı əlaqəsini təmin edən fərdi elektron səhifə;

2.1.6. anonimləşdirmə - dövlət, peşə, qulluq, bank, kommersiya, vergi sirri ilə bağlı, habelə şəxsi və ailə həyatına dair fərdi məlumatların onları müəyyənləşdirməyə imkan verməyən vəziyyətə salınması;

2.1.7. məlumatların yayılması - İnformasiya sistemi vasitəsilə bütün məhkəmə qərarlarının (qətnamələr, hökmlər, əmrlər, qərardadlar və qərarlar) elektron qaydada dərc edilməsi;

2.1.8. vahid məhkəmə portalı - məhkəmələr, hakimlər və məhkəmə işləri barədə məlumatların elektron qaydada əldə olunmasına xidmət edən vasitə.

**3. İnformasiya sisteminin fəaliyyətinin prinsipləri**

3.1. İnformasiya sistemi Qaydaların 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla formalaşdırılır və aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

3.1.1. istifadə rahatlığı - İnformasiya sistemindən istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. operativlik - müvafiq sənədlərin və müraciətlərin təqdim edilməsinin, qəbulunun, cavablandırılmasının, informasiyanın əldə olunmasının və mübadiləsinin avtomatlaşdırılmış qaydada həyata keçirilməsi;

3.1.3. fasiləsizlik - İnformasiya sistemində aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmayaraq, fəaliyyətin fasiləsiz həyata keçirilməsi;

3.1.4. şəffaflıq - sistemin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi imkanının mövcudluğu.

**4. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu**

4.1. İnformasiya sistemi aşağıdakı elementlərdən ibarətdir:

4.1.1. İnformasiya sisteminin proqram kompleksi;

4.1.2. İnformasiya sisteminin mərkəzi və ehtiyat avadanlıq kompleksi;

4.1.3. İnformasiya sisteminin şəbəkə infrastrukturu;

4.1.4. İnformasiya sistemi iştirakçılarının işçi stansiyalarının texniki vasitələri;

4.1.5. İnformasiya ehtiyatı.

4.2. İnformasiya sisteminin proqram kompleksinə əməliyyat sistemləri, tətbiqi proqram təminatı, informasiyanın mühafizəsi və digər proqram vasitələri aiddir. Tətbiqi proqram təminatına aşağıdakılar daxildir:

4.2.1. Vahid məhkəmə portalı;

4.2.2. Elektron kabinet;

4.2.3. Dövlət rüsumlarının məhkəmələr üzrə elektron uçotu;

4.2.4. Yekun məhkəmə qərarlarının vahid bazası;

4.2.5. Elektron əmr icraatı altsistemi;

4.2.6. Məhkəmələrdə insan resurslarının elektron idarəetmə altsistemi;

4.2.7. Məhkəmə işlərinin elektron idarəedilməsi altsistemi;

4.2.8. Sənədlərin elektron dövriyyəsi altsistemi;

4.2.9. Məhkəmə proseslərinin elektron audio-video protokollaşdırma altsistemi;

4.2.10. Proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə olunmaqla iclasda iştirak etmək imkanını təmin edən videokonfrans altsistemi;

4.2.11. Dövlət və digər informasiya sistemləri ilə məlumat mübadiləsini təmin edən inteqrasiya və elektron məlumat sorğulama modulu;

4.2.12. Məhkəmə işinin təşkili üzrə məlumat pəncərəsi;

4.2.13. Məhkəmə qərarlarını avtomatlaşdırılmış anonimləşdirmə modulu;

4.2.14. Məhkəmə işlərinin avtomatlaşdırılmış təsadüfi bölgüsü modulu;

4.2.15. Analitik təhlil və statistik hesabat modulu.

4.3. İnformasiya sisteminin avadanlıq kompleksinə serverlər, yaddaş qurğuları, soyutma sistemləri, fasiləsiz enerji mənbələri və digər texniki vasitələr aiddir. İnformasiya sisteminin ehtiyat mərkəzi yaradılır və həmin sistemin proqram-texniki vasitələrinin nüsxəsi bu mərkəzdə saxlanılır. İnformasiya sisteminin mərkəzi və

ehtiyat avadanlıq kompleksi operatorun nəzarəti altında fəaliyyət göstərir.

4.4. İnformasiya sisteminin şəbəkə infrastrukturunu kommunikasiya avadanlığı və mühafizə olunan telekommunikasiya kanalları təşkil edir.

4.5. İnformasiya sistemi iştirakçılarının işçi stansiyalarının texniki vasitələrinə kompüter dəsti, çap qurğusu, veb kamera, barkod və sənədoxuyucu skanerlər, habelə digər zəruri elektron cihazlar daxildir. Bu texniki vasitələrin mühafizəsini və onlardan aidiyyəti üzrə istifadəni iştirakçı təmin etməlidir.

4.6. İnformasiya ehtiyatı bütün məhkəmələr, hakimlər, məhkəmə aparatının işçiləri, məhkəmə proseslərində iştirak edən şəxslər, məhkəmə işləri, iclaslar, prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayətlər və protestlər barədə məlumatları ehtiva edir. İnformasiya ehtiyatının əsas və ehtiyat nüsxələri mövcuddur.

### 5. Təhlükəsizlik tədbirləri

5.1. Məlumatların mühafizə səviyyəsinin daim nəzarətdə saxlanılmasını, onların təhlükəsizliyinə qarşı yönələn təhdidlərin müəyyən edilməsini və ehtimal olunan təhdidlərin neytrallaşdırılmasını təmin edən mühafizə sisteminin işlənib hazırlanması və daim təkmilləşdirilməsi İnformasiya sisteminin təhlükəsizliyinin vacib elementidir.

5.2. İnformasiya sistemində məlumatların işlənməsi zamanı proqram-texniki vasitələrin işinin pozulmasına gətirib çıxaran təsirlərə yol verilməməlidir.

5.3. Sahib məlumatlara qanunsuz müdaxilə faktlarının vaxtında aşkar edilməsini, həmin faktların, habelə məlumatların surətlərinin çıxarılmasının və (və ya) bu məlumatların onlarla işləməyə icazəsi olmayan şəxslərə ötürülməsinin qarşısının alınmasını, dəyişdirilmiş və ya məhv edilmiş məlumatların dərhal bərpası imkanının olmasını təmin etməlidir.

5.4. İnformasiya sistemi üzrə məlumatların təhlükəsiz şəkildə yazılması, sistemləşdirilməsi, yenilənməsi, dəyişdirilməsi, çıxarılması, silinməsi, anonimləşdirilməsi, yayılması, saxlanılması, ötürülməsi və məhv edilməsi üçün mühafizə vasitələri sertifikatlaşdırılmalı, texniki tələblərə uyğun quraşdırılmalı və istismara verilməlidir.

5.5. İnformasiya sisteminə daxil edilən məlumatların etibarlılığının və təhlükəsizliyinin təmin olunması məqsədilə İnformasiya sisteminin istifadəçiləri "Vahid Giriş Sistemi"ndən ("ASAN login") istifadə etməklə İnformasiya sisteminə daxil olmalı və eyniləşdirilməlidirlər. İnformasiya sistemində elektron sənədlərin təsdiqi və göndərilməsi gücləndirilmiş elektron imzadan istifadə etməklə həyata keçirilməlidir.

5.6. Operator sahibin tələbinə əsasən İnformasiya sisteminin istismarı, inkişafı və təhlükəsizliyi üzrə fəaliyyəti həyata keçirir.

5.7. İnformasiya sisteminin yaradılması və istifadəsi prosesində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, informasiyanın mühafizəsinə dair tələblərə riayət edilməlidir.

### 6. İnformasiya sisteminin funksionallığına dair tələblər

6.1. İnformasiya sistemi vasitəsilə aşağıdakılar təmin edilir:

6.1.1. informasiyanın informasiya ehtiyatında toplanması, emalı, axtarışı, təhlili və ötürülməsi;

6.1.2. İnformasiya sisteminə daxil edilən məlumatların dəqiqliyi, tamlığı, aktuallığı və etibarlılığı;

6.1.3. İnformasiya sisteminin fasiləsiz fəaliyyətinin təmin edilməsi;

6.1.4. İnformasiya sistemindən, eyni zamanda, çoxsaylı istifadəçilərin istifadə etməsinin mümkünlüyü;

6.1.5. təhlükəsizlik və məlumatların mühafizəsi;

6.1.6. informasiya mübadiləsində bir-biri ilə uzlaşa bilən texnologiyaların və proqram-texniki vasitələrin tətbiqi;

6.1.7. məhkəmə prosesi ilə bağlı elektron xidmətlər göstərilməsi;

6.1.8. məhkəmə sənədlərinin layihələrinin hazırlanması;

6.1.9. məhkəmə prosesində iştirak edən şəxslərin zəruri məlumatlarının real vaxt rejimində yoxlanılması və İnformasiya sistemində olduqda, şəxsdən tələb edilməməsi;

6.1.10. məhkəmə icraatı zamanı tələb olunan məlumat-

ların bu Əsasnamənin 11-ci hissəsində göstərilən qaydada elektron əldə edilməsi;

6.1.11. İnformasiya sisteminin iştirakçıları və istifadəçiləri tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi;

6.1.12. mülki işlər və kommersiya mübahisələrinə dair işlər üzrə icraatın elektron qaydada aparılması;

6.1.13. məhkəməyə daxil olan işlərin hakimlər arasında təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi;

6.1.14. məhkəmədə işlərə baxılma vaxtlarına və tarixlərinə dair avtomatlaşdırılmış qaydada elektron cədvəlin tərtibi;

6.1.15. məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada (elektron kabinet, elektron poçt və SMS məlumatlandırma) çatdırılması;

6.1.16. məhkəmə iclasının audio və video texniki vasitələrdən istifadə etməklə qeydə alınması və onları real vaxt rejimində müşahidə etmək imkanının yaradılması;

6.1.17. mülki və kommersiya mübahisələrinə dair işlər üzrə proses iştirakçılarının iclasa gəlmədən texniki vasitələrdən istifadə yolu ilə iclasda iştirak etmələrinə imkan yaradılması;

6.1.18. məhkəmə işləri üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyaların olması;

6.1.19. qəbul edilən məhkəmə qərarlarının icraya yönəldilməsi və icra prosesinin izlənilməsi;

6.1.20. İnformasiya sistemində proses iştirakçısının iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almağa imkan yaradan elektron kabinetin təşkili;

6.1.21. elektron qaydada yayılan məhkəmə qərarlarının anonimləşdirilməsi və müxtəlif meyarlar əsasında həmin qərarlarda effektiv axtarış aparılması;

6.1.22. məhkəmələrin bütün qərarlarının gücləndirilmiş elektron imza ilə təsdiq edildikdən sonra elektron qaydada yayılması;

6.1.23. məhkəmə fəaliyyəti ilə bağlı analitik təhlil və statistikanın elektron qaydada aparılması;

6.1.24. statistik məlumatların emalında intellektual idarəetmədən istifadə olunması;

6.1.25. məhkəmə fəaliyyətində süni intellektdən istifadə edilməsi;

6.1.26. məlumatların sistemləşdirilmiş şəkildə saxlanılması.

**7. İnformasiya sistemi sahibinin hüquqları və vəzifələri**

7.1. İnformasiya sistemi sahibinin aşağıdakı hüquqları vardır:

7.1.1. bu Əsasnamənin 9.2.5-ci yarımbəndində göstərilmiş və qanunla müəyyən edilmiş hallarda iştirakçıların İnformasiya sisteminə giriş imkanını ləğv etmək;

7.1.2. əldə olunması qanunla məhdudlaşdırılan, o cümlədən xidməti istifadə üçün nəzərdə tutulan informasiyadan yalnız müvafiq normativ hüquqi aktlara uyğun şəkildə istifadə məqsədilə həmin məlumatların ötürülməsində məhdudiyyətlər tətbiq etmək;

7.1.3. iştirakçının və istifadəçinin yazılı müraciəti əsasında İnformasiya sistemində saxlanılan məlumatlarda dəyişiklik etmək.

7.2. İnformasiya sistemi sahibinin aşağıdakı vəzifələri vardır:

7.2.1. iştirakçıların İnformasiya sisteminə giriş hüququnu təmin etmək;

7.2.2. digər dövlət qurumları ilə məlumatların elektron formada mübadiləsini Qaydaların tələblərinə uyğun olaraq həyata keçirmək;

7.2.3. İnformasiya sisteminin təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

7.2.4. İnformasiya sisteminin beynəlxalq təcrübəyə uyğun inkişaf etdirilməsini təmin etmək;

7.2.5. İnformasiya sisteminin digər informasiya ehtiyatları və sistemləri ilə EHİS vasitəsilə inteqrasiyasını həyata keçirmək;

7.2.6. İnformasiya sisteminin funksiyaları barədə iştirakçıları məlumatlandırmaq, onlara metodiki kömək göstərmək, bu sahədə mütəmadi bilik və bacarıqlarının artırılması məqsədilə təlimlər təşkil etmək;

7.2.7. İnformasiya sisteminin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, saxlanılmasını, tərtib olunmuş qrafik üzrə operator tərəfindən

müvafiq profilaktik işlərin aparılmasını təşkil etmək və onlara nəzarəti həyata keçirmək;

7.2.8. İnformasiya sisteminə daxil edilmiş məlumatların təhlükəsizliyi ilə bağlı təşkilati və texniki tədbirlər görmək, məlumatlardan istifadənin və onların mühafizəsinin təşkilini təmin etmək;

7.2.9. İnformasiya sistemindəki məlumatların aktuallığını, etibarlılığını, əlçatanlığını, tamlığını, habelə onların ehtiyat surətlərinin saxlanmasını və qorunmasını təşkil etmək;

7.2.10. İnformasiya sistemi vasitəsilə dayanıqlı və fasiləsiz məlumat mübadiləsi aparılmasını təşkil etmək;

7.2.11. iştirakçılarda və istifadəçilərdə yaranmış çətinliklərin müəyyən edilməsi və zəruri təlimatlandırma işlərinin aparılması üçün qaynar xətt təşkil etmək;

7.2.12. mərkəzi və ehtiyat avadanlıq komplekslərində hər hansı bir qəza (xəta) baş verdiyi və ya İnformasiya sisteminin fəaliyyətində fasilə yarandığı halda İnformasiya sisteminin iştirakçılarını və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini (bundan sonra - Əlaqələndirici qurum) bu barədə məlumatlandırmaq;

7.2.13. məhkəmə qərarlarının anonimləşdirilməklə elektron qaydada yayılmasını təşkil etmək;

7.2.14. İnformasiya sisteminə məlumatların tam və vaxtında ötürülməsinə və həmin məlumatların əldə edilməsinə qanunla müəyyən edilmiş hədlərdə nəzarət etmək;

7.2.15. İnformasiya sisteminin informasiya ehtiyatında dəyişiklikləri müvafiq qeydlər etməklə aparmaq, belə qeydlər üçün əsas olan sənədləri müvafiq sənədlər qovluğuna daxil etmək;

7.2.16. İnformasiya sistemi üzrə statistik hesabatlar hazırlamaq və onlar əsasında təhlillər aparmaq;

7.2.17. İnformasiya sisteminin təşkili və fəaliyyəti ilə bağlı Əlaqələndirici qurumun qiymətləndirmələr aparmasına zəruri şərait yaratmaq;

7.2.18. İnformasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları Əlaqələndirici quruma təqdim etmək;

7.2.19. Əlaqələndirici qurumun əsaslandırılmış tələbinə uyğun olaraq, İnformasiya sisteminin fəaliyyətini təşkil etmək, onda dəyişiklik etmək və təkmilləşdirmələr aparmaq;

7.2.20. İnformasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.2.21. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə məlumat İnformasiya sistemində olduqda, həmin məlumatın ilkin mənbədən əldə edilməsini bu Əsasnamə və Qaydalara uyğun təmin etmək;

7.2.22. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında sahibin rəsmi internet resursu və EHİS vasitəsilə göstərilməsini təmin etmək;

7.2.23. istifadəçilərin tələbi əsasında onlar barədə məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

7.2.24. İnformasiya sisteminin fəaliyyətini bu Əsasnamənin 1.2-ci bəndində göstərilən normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, onun formalaşdırılmasına, aparılmasına, inteqrasiyasına, arxivləşdirilməsinə, dayanıqlı və etibarlı fəaliyyətinin təmin edilməsinə nəzarət etmək;

7.2.25. iştirakçılara və istifadəçilərə İnformasiya sisteminin iş prinsipi və funksional imkanları haqqında məlumat vermək, metodiki kömək göstərmək.

**8. İnformasiya sistemi operatorunun hüquqları və vəzifələri**

8.1. İnformasiya sistemi operatorunun aşağıdakı hüquqları vardır:

8.1.1. İnformasiya sisteminin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

8.1.2. İnformasiya sistemi ilə məlumat mübadiləsində iştirak edəcək informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

8.1.3. digər informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsinin təşkili üçün zəruri elektron servislər təşkil etmək və onları yeniləmək;

8.2. İnformasiya sistemi operatorunun aşağıdakı vəzifələri vardır:

8.2.1. İnformasiya sistemi

vasitəsilə iştirakçının dayanıqlı, fasiləsiz, etibarlı və təhlükəsiz məlumat mübadiləsi aparmasını təmin etmək;

8.2.2. İnformasiya sisteminin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışları təşkil etmək;

8.2.3. proqram təminatının lisenziyalaşdırılmasını, lisenziyalı proqram təminatlarının işlək vəziyyətdə olmasını və yenilənməsini təmin etmək;

8.2.4. İnformasiya sistemində toplanılan texniki vasitələrin əməliyyatların qeydiyyat fayllarının (loq-faylların) monitorinqini həyata keçirmək və baş verən xətalar üzrə təhlillər aparmaq;

8.2.5. saxlanılan məlumatların sürətli axtarışının həyata keçirilməsi məqsədilə informasiya ehtiyatının mütəmadi optimallaşdırılmasını təşkil etmək;

8.2.6. informasiya ehtiyatının ehtiyat nüsxəsinin saxlanılması üçün tədbirlər görmək;

8.2.7. müəyyən edilmiş qrafik üzrə, eləcə də sahibin müraciəti əsasında İnformasiya sisteminin yerləşdiyi server və şəbəkə avadanlığına profilaktik baxış keçirilməsini təmin etmək və aktlaşdırmaq;

8.2.8. mütəmadi olaraq şəbəkə infrastrukturunda məlumatötürmə sürətini ölçmək və fasilələr yaranmasının səbəblərini müəyyən etmək məqsədilə monitorinqlər keçirmək;

8.2.9. İnformasiya sisteminə daxil edilən məlumatların tamlığını, təhrifolunmazlığını, əlçatanlığını, konfidensiallığını (məxfiliyini) və mühafizəsini təmin etmək;

8.2.10. İnformasiya sistemindən istifadə zamanı yaranan nasazlıqları aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər görmək;

8.2.11. mərkəzi və ehtiyat avadanlığında hər hansı bir qəza (xəta) baş verdiyi və İnformasiya sisteminin fəaliyyətində hər hansı fasilə yarandığı halda sahibi bu barədə məlumatlandırmaq;

8.2.12. server və şəbəkə avadanlığının yerləşdiyi otaqlarda fasiləsiz elektrik enerjisini, yanğın təhlükəsizliyini və tələb olunan temperaturu tənzimləyən avadanlığa müəyyən edilmiş qaydada texniki baxışların keçirilməsini və aşkar olunmuş nasazlıqların aradan qaldırılmasını təmin etmək;

8.2.13. sahibin müraciəti əsasında, qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən ən qısa müddətdə proqram təminatında uyğunlaşdırmaların aparılmasını, eləcə də yeni proqram modulların yazılmasını və sınaqların keçirilməsini təmin etmək;

8.2.14. informasiya ehtiyatı üzrə sahibin tələb etdiyi məzmunda hesabatlar hazırlamaq;

8.2.15. qanunsuz daxil olma və saxtalaşdırma hallarının qarşısını almaq, habelə giriş və əməliyyat tarixçələrini (loqları) saxlamaq;

8.2.16. sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini texniki tələblərə, eləcə də bu Əsasnamə ilə və Qaydalarla müəyyən edilən tələblərə uyğun formada aparmaq;

8.2.17. informasiya sisteminin dayanıqlı və fasiləsiz fəaliyyətini, sistemin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini, habelə təkmilləşdirilməsi üzrə profilaktik işlərin görülməsini təmin etmək.

**9. İnformasiya sistemi iştirakçılarının hüquqları və vəzifələri**

9.1. İnformasiya sistemi iştirakçılarının aşağıdakı hüquqları vardır:

9.1.1. İnformasiya sisteminin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

9.1.2. məhkəmə prosesində iştirak edən şəxslər barədə İnformasiya sistemində məlumatları yoxlamaq, zəruri sənəd və arayışlara dair məlumatları əldə etmək və ötürmək;

9.1.3. iclasın real vaxt rejimində müşahidə edilməsini, habelə texniki vasitələrdən istifadə yolu ilə iclasda iştirak etməsi imkanını təmin etmək.

9.2. İnformasiya sistemi iştirakçılarının aşağıdakı vəzifələri vardır:

9.2.1. məlumatları dolğun şəkildə İnformasiya sisteminə daxil etmək, bu məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək;

9.2.2. İnformasiya sistemindən və oradakı məlumatlardan yalnız xidməti məqsədlər üçün istifadə etmək;

9.2.3. sahib tərəfindən İnformasiya sisteminə daxil edilən və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumat və sənədləri daim izləmək;

9.2.4. məhkəmə sənədlərinə

dair İnformasiya sistemində saxlanılan məlumatlarda aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə məlumat vermək.

9.2.5. iş yerini dəyişdikdə və ya işdən çıxdıqda, İnformasiya sistemindən istifadənin dayandırılması barədə məhkəmə sədri və ya məhkəmə aparatının rəhbəri vasitəsilə sahibə məlumat vermək;

9.2.6. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

9.2.7. İnformasiya sisteminin fəaliyyətini ləngidən, ona zərər vuran və ya onun fəaliyyətinin dayanmasına səbəb ola bilən hərəkətlərə yol verməmək;

9.2.8. İnformasiya sisteminin fəaliyyətinin texniki səbəblərdən dayandığı hallar istisna olmaqla, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə sənədlərini İnformasiya sistemi vasitəsilə tərtib etmək;

9.2.9. İnformasiya sisteminə giriş imkanı verən avtomatlaşdırılmış işçi stansiyanı və İnformasiya sistemindən əldə olunan qanunla qorunan məlumatları özündə əks etdirən kağız daşıyıcıları nəzarətdən kənar qoymamaq;

9.2.10. İnformasiya sistemindən istifadə zamanı kompüterin monitorunda əks olunan məlumatları kənar şəxslərin oxumasına imkan verməmək, eləcə də internet şəbəkəsi vasitəsilə yayımlamamaq;

9.2.11. İnformasiya sisteminə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) pozmamaq;

9.2.12. məlumatların mühafizəsi ilə bağlı tədbirlərin yoxlanılmasını həyata keçirən şəxslərə maneələr yaratmamaq;

9.2.13. məhkəmə işləri üzrə işdə iştirak edən şəxslər İnformasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə sənədlərini bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirmək və onlara bu barədə məlumatı həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) çatdırmaq;

9.2.14. məhkəmə işləri üzrə işdə iştirak edən şəxslər İnformasiya sistemində qeydiyyatdan keçməmişlərsə, onlara məhkəmə sənədləri barədə məlumatları bu sistem vasitəsilə şəxsin təqdim etdiyi mobil telefon nömrəsinə SMS-lə çatdırmaq;

9.2.15. məhkəmə işləri üzrə işdə iştirak edən şəxslər İnformasiya sistemində qeydiyyatdan keçməmişlərsə və şəxs mobil telefon nömrəsi təqdim etməmişdirsə, məhkəmə sənədləri barədə məlumatların bu sistem tərəfindən mövcud dövlət məlumat mənbələrindən əldə edilən bütün aktiv mobil telefon nömrələrinə SMS-lə çatdırılmasını təmin etmək (İnformasiya sistemi iştirakçılarının dövlət məlumat mənbələrindən əldə edilən mobil telefon nömrələri barədə məlumata çıxışının olmaması şərtilə);

9.2.16. kommersiya mübahisələri üzrə işlərdə iştirak edən şəxslərin məhkəmə sənədlərini onların İnformasiya sistemində yaradılmış elektron kabinetlərində yerləşdirmək və onlara bu barədə məlumatı həmin sistem vasitəsilə elektron qaydada (elektron poçt və SMS vasitəsilə) çatdırmaq;

9.2.17. məhkəmə iclasının audio və video texniki vasitələrdən istifadə etməklə qeydə alınmasını təmin etmək;

9.2.18. məhkəmə qərarları tərtib və gücləndirilmiş elektron imza ilə təsdiq edildikdən sonra onların avtomatlaşdırılmış qaydada, işdə iştirak edən şəxslərin elektron kabinetlərində yerləşdirilməsini təmin etmək;

9.2.19. məhkəmə iclaslarının fasiləsiz audio-video yazısının aparılması barədə məhkəmə prosesinin tərəflərini və işdə iştirak edən digər şəxsləri xəbərdar etmək.

**10. İnformasiya sistemi istifadəçilərinin hüquqları və vəzifələri**

10.1. İnformasiya sistemi istifadəçilərinin aşağıdakı hüquqları vardır:

10.1.1. məhkəmənin fəaliyyət istiqamətlərinə aid olan xidmətlərdən İnformasiya sistemi vasitəsilə istifadə etmək;

10.1.2. xidmətlərdən istifadə etmək üçün elektron kabinet yaratmaq;

10.1.3. iştirak etdikləri bütün məhkəmə işləri, o cümlədən məhkəmə prosesləri barədə mövcud məlumatlarla tanış olmaq;

10.1.4. ərizə, şikayət və digər sənədləri məhkəməyə elektron qaydada göndərmək;

10.1.5. iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onlardan verilən şikayət və ya protestlər barədə elektron

qaydada (elektron poçt və SMS vasitəsilə) məlumat almaq;

10.1.6. İnformasiya sisteminin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

10.1.7. Bu Əsasnamə ilə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

10.2. İnformasiya sistemi istifadəçilərinin aşağıdakı vəzifələri vardır:

10.2.1. kommersiya mübahisələri üzrə işlərlə bağlı elektron kabinet yaratmaq;

10.2.2. İnformasiya sisteminə məlumatları düzgün daxil etmək.

**11. İnformasiya sistemi ilə əlaqəli fəaliyyət göstərən digər dövlət informasiya ehtiyatları və sistemləri**

11.1. Məlumat-axtarış işinin operativliyini və səmərəliliyini artırmaq məqsədilə İnformasiya sistemi Azərbaycan Respublikası Vergi Məcəlləsinin, "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında", "Banklar haqqında" və "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla digər dövlət informasiya sistemləri ilə əlaqəli fəaliyyət göstərir.

11.2. İnformasiya sisteminin iştirakçıları qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə icraatı ilə bağlı iş üçün əhəmiyyət kəsb edən halların araşdırılması üçün müvafiq olaraq hakimin sorğusu və ya hakimin gücləndirilmiş elektron imzası ilə təsdiq olunmuş və qanuni qüvvəyə minmiş qərarı əsasında EHİS vasitəsilə aşağıdakı məlumatları əldə edirlər:

11.2.1. hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər barədə məlumatlar;

11.2.2. vergi ödəyicisi ilə bağlı keçirilmiş yoxlamalar haqqında məlumatlar;

11.2.3. telefon nömrələri barədə məlumatlar;

11.2.4. əmək müqaviləsi, pensiya və sosial müavinətlər haqqında məlumatlar;

11.2.5. daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış mülkiyyət və istifadə hüquqlarına dair məlumatlar;

11.2.6. daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış mülkiyyət, icarə və istifadə hüquqlarının məhdudlaşdırılmasına (yüklülüyünə) dair məlumatlar;

11.2.7. şəxslər barəsində axtarış və cinayət işlərinə, məhkumluğa, cərimə ödənişlərinə dair məlumatlar;

11.2.8. şəxsə məxsus olan nəqliyyat vasitələri barədə məlumatlar;

11.2.9. sürücülük vəsiqələri barədə məlumatlar;

11.2.10. şəxslərin və nəqliyyat vasitələrinin sərhədkeçmə uçotu;

11.2.11. sərhədkeçməsinə məhdudiyyət qoyulmuş şəxslər barədə məlumatlar;

11.2.12. ipoteka kreditləşməsi və təminat verilən kreditlər üzrə bank sirri təşkil edən məlumatlar;

11.2.13. kredit təşkilatlarından - şəxslərin bank və ya kredit təşkilatlarında mövcud olan hesabları, əmanətləri, hesablardakı vəsaitlərinin miqdarı barədə məlumatlar;

11.2.14. kredit məlumatlarının icmalı, borcalanın aktiv öhdəlikləri, borcalanın bağlanmış öhdəlikləri, borcalanın zamin olduğu öhdəliklər;

11.2.15. ipoteka və ya girov saxlayan qismində xeyrinə yüklü edilən daşınmaz və ya daşınar əşyalar barədə məlumatlar;

11.2.16. məcburi köçkünlər barədə məlumatlar;

11.2.17. elektrik enerjisi, içməli su və qaz abunəçiləri, onların borcları barədə məlumatlar;

11.2.18. yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə vermə mexanizmi üzrə kirayəçiyə dair məlumatlar;

11.2.19. qiymətli kağızlar və onların yüklülüyü barədə məlumatlar;

11.2.20. icbari sığorta müqavilələrinə dair məlumatlar;

11.2.21. şəxsin təhsili və təhsil sənədləri barədə məlumatlar;

11.2.22. Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrindən - vətəndaşlar və Azərbaycan Respublikasında daimi yaşayan, yaxud qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə vətəndaşlıq vəziyyəti aktları barədə məlumatlar;

11.2.23. "Elektron icra" informasiya sistemindən - məhkəmə qərarlarının icrası vəziyyəti barədə məlumatlar;

11.2.24. "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sistemindən - barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslər, məhkumlar, habelə həbs qətimkan tədbirinin və cəzaların icrası vəziyyəti barədə məlumatlar;

11.2.25. Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid

məlumat reyestrindən - yoxlamalar barədə məlumatlar;

11.2.26. "Elektron notariat" informasiya sistemindən - notariat hərəkətləri barədə məlumatlar.

**12. İnformasiya sisteminin fəaliyyətinin təşkili**

12.1. İnformasiya sisteminin fəaliyyətinin və təhlükəsizliyinin təşkilini, aidiyyəti qurumlarla qarşılıqlı fəaliyyətin əlaqələndirilməsini sahib həyata keçirir.

12.2. İnformasiya sistemi daxilində informasiya ehtiyatlarından istifadəyə buraxılış həddini sahib müəyyən edir.

12.3. İnformasiya sisteminə iştirakçı tərəfindən daxil edilən məlumatlar həmin şəxsin gücləndirilmiş elektron imzası ilə təsdiqlənməlidir.

12.4. Məhkəmə fəaliyyəti ilə bağlı tələb olunan məlumatlar İnformasiya sistemi vasitəsilə yoxlanılır, sənəd və arayışlara dair məlumatlar bu Əsasnamənin 11.2-ci bəndində müəyyən olunmuş qaydada əldə edilir.

12.5. Məhkəmə sənədlərinin layihələri İnformasiya sistemi vasitəsilə avtomatlaşdırılmış formada generasiya olunaraq tərtib edilir.

12.6. Tərtib edilən məhkəmə qərarı qanunvericilik aktlarının tələblərinə uyğunluq baxımından yoxlanıldıqdan sonra hakim həmin qərarı gücləndirilmiş elektron imza ilə təsdiq edir. Məhkəmələrin bütün qərarları qəbul olunduğu gündən 1 (bir) aydan gec olmayaraq anonimləşdirilməklə elektron qaydada yayılmalıdır.

12.7. İnformasiya sisteminə daxil edilən məlumatlar dolğun olmalı, zəruri xanalar tam doldurulmalı və anonimləşdirilən məlumatlar istisna olmaqla, sözlər ixtisarla ifadə edilməməlidir.

12.8. Məlumatlar İnformasiya sisteminə Azərbaycan Respublikasının dövlət dilində daxil edilir.

12.9. İnformasiya sisteminə daxil edilmiş məlumatlarda çatışmazlıqlar aşkar olunduqda, iştirakçının yazılı müraciəti əsasında sahib həmin çatışmazlıqları aradan qaldırır.

**13. İnformasiya sistemindən istifadə qaydası**

13.1. İnformasiya sistemindən istifadə "Vahid məhkəmə portalı" və onun tərkib hissəsi olan elektron kabinet vasitəsilə həyata keçirilir.

13.2. İstifadəçilər "Vahid məhkəmə portalı" vasitəsilə açıq sənədlərlə (məlumatlarla) tanış ola, Vahid Giriş Sistemi ("ASAN login") ilə eyniləşdirildikdən sonra avtomatik qaydada yaradılmış elektron kabinetləri vasitəsilə özlərinə aid sənədləri (məlumatları) əldə edə, habelə onların gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş elektron variantlarını çap edə, ödənişlər və digər əməliyyatlar həyata keçirə bilərlər.

13.3. İstifadəçilər, həmçinin İnformasiya sistemində yaradılan elektron kabinetləri vasitəsilə özləri haqqında toplanan məlumatlarda dəyişiklik edilməsi barədə müraciət edə, habelə həmin məlumatlardan istifadə olunması barədə informasiyanı əldə edə (onlarla tanış ola) bilərlər.

13.4. İnformasiya sistemində həyata keçirilən elektron xidmətlərdən istifadə sahibin rəsmi internet saytında dövlət xidmətləri bölməsi və EHİS vasitəsilə ödənişlərin edilməsi isə "ASAN ödəniş" və digər ödəniş sistemləri vasitəsilə (elektron kabinetdə "ASAN ödəniş" və digər ödəniş sistemlərinə keçid verilməklə) həyata keçirilir.

13.5. Sahib istifadəçinin İnformasiya sistemindəki məlumatlarına (elektron kabinetə) giriş hüquqlarını aşağıdakı hallarda məhdudlaşdıra bilər:

13.5.1. İnformasiya sisteminə qeyri-qanuni daxilolma və ya müdaxilə baş verdikdə;

13.5.2. bu Əsasnamədə müəyyən edilmiş tələblər yerinə yetirilmədikdə.

13.6. Məhkəmə və proses iştirakçıları tərəfindən ərizə, şikayət və digər sənədlərin elektron formada tərtib edilməsi, göndərilməsi, qəbulu, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 10-1.2-ci maddəsində nəzərdə tutulan "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarına uyğun olaraq həyata keçirilir.

# Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində vətəndaşların videoqəbulunun təşkili

# QAYDASI

*Azərbaycan Respublikasının ədliyyə nazirinin 10.06.2020-ci il tarixli 16-T nömrəli əmri ilə təsdiq edilmişdir.*

**1. Ümumi müddəalar**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində (bundan sonra - Nazirlik) vətəndaşların videoqəbulu "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun olaraq ədliyyə naziri tərəfindən təsdiq edilmiş vətəndaşların qəbulu qrafiki, Nazirliyin Katibliyinin Vətəndaşların qəbulu şöbəsinin və regional ədliyyə idarələrinin gündəlik iş rejimi əsasında təmin edilir.

**2. Vətəndaşların videoqəbulu üçün müraciəti**

2.1. Vətəndaşlar ədliyyə naziri, onun müavinləri, nazirliyin baş idarə və idarə rəislərinin videoqəbulunda olmaq üçün Nazirliyin rəsmi internet səhifəsində (http://www.justice.gov.az) yerləşdirilmiş qəbul qrafikinə uyğun olaraq qeydiyyatda olduqları və ya yaşadıqları rayon və ya şəhərin yurisdiksiyasına aid olduğu regional ədliyyə idarələrinə, Bakı şəhəri üzrə isə Nazirliyin Katibliyinin Vətəndaşların qəbulu şöbəsinə şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiq edən digər sənəd əsasında şəxsən müraciət etməklə və ya Nazirliyin rəsmi internet səhifəsində dövlət xidmətləri bölməsi vasitəsilə videoqəbula ən geci 1 iş günü qalmış yazılır, qəbulun vaxtı və yeri barədə məlumatlandırılırlar.

2.2. Vətəndaşın soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, Azərbaycan Respublikasının vətəndaşı olmadıqda isə şəxsiyyətini təsdiq edən sənədin seriya və nömrəsi, ünvanı, müraciət etdiyi məsələnin mahiyyəti, əvvəllər bu məsələ ilə əlaqədar müraciət edib-etməməsi və onunla əlaqə vasitələri öyrənildikdən sonra o, qəbula yazılır.

2.3. Qəbula yazılan vətəndaşların siyahısı Nazirliyin Katibliyinin Vətəndaşların qəbulu şöbəsi tərəfindən tərtib edilir. Siyahıda vətəndaş barədə məlumatlar (sıra nömrəsi, soyadı və atasının adı, ünvanı, əlaqə telefonları, müraciətin qısa məzmunu) və müraciəti qəbul edən şəxs barədə məlumat qeyd olunur.

**3. Videoqəbulların keçirilməsi**

3.1. Ədliyyə naziri, onun müavinləri, nazirliyin baş idarə və idarə rəislərinin videoqəbulları qəbul cədvəlində müəyyən edilmiş günlərdə və saatlarda nazirliyin aparatının və ya regional ədliyyə idarələrinin xüsusi avadanlıqla təchiz olunmuş qəbul otaqlarında həyata keçirilir.

3.2. Vətəndaş videoqəbulun keçirildiyi otağa müvafiq siyahıya uyğun olaraq şəxsiyyəti təsdiq edən sənəd əsasında Nazirliyin səlahiyyətli əməkdaşı tərəfindən buraxılır.

3.3. Videoqəbul zamanı konfidensiallıq təmin olunur və kənar şəxslərin qəbul prosesini

birbaşa və ya digər formada izləməsinə yol verilmir.

3.4. Videoqəbul zamanı qəbul otağına vətəndaşın video və audio yazı qurğusu, həmçinin mobil telefon aparması qadağandır.

3.5. Qəbul zamanı qeyri-etik hərəkətlərə yol verən şəxslərlə video əlaqə xəbərdarlıq edilmədən dərhal dayandırılır.

3.6. Videoqəbulların təşkili ilə bağlı informasiya kommunikasiya texnologiyalarının tətbiqi, o cümlədən qəbulun videoyazısı və arxivləşdirilməsi Nazirliyin İnformasiya-kommunikasiya texnologiyaları idarəsi tərəfindən təmin edilir.

4. Videoqəbullar zamanı edilmiş müraciətlərə baxılması

4.1. Videoqəbullar zamanı edilmiş müraciətlər video fayl şəklində Nazirliyin "Elektron sənəd dövriyyəsi" informasiya sistemində qeydiyyata alınır, habelə müraciətlər üçün qeydiyyat-nəzarət vərəqələri tərtib edilir.

4.2. Müraciətlərə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun baxılır və Nazirliyin rəhbərliyi tərəfindən vətəndaşların videoqəbulu həyata keçirilərkən onların müraciətlərinə Nazirliyin Kollegiyasının 2011-ci il 29 noyabr tarixli 5-N nömrəli qərarı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarında vətəndaşların qəbulu Qaydası"na Əlavə 4-də nümunəvi forması göstərilmiş blankda müvafiq qeydiyyat aparılır.

4.3. Vətəndaşın müraciətində qaldırılan məsələnin həlli əlavə araşdırma tələb etmədikdə, vətəndaşın razılığı ilə müraciət videoqəbul zamanı şifahi qaydada cavablandırılır.

4.4. Müraciətin birbaşa cavablandırılması mümkün olmadıqda, onun araşdırmaya qəbul edilərək sonradan cavablandırılması məqsədi ilə qeydiyyat-nəzarət vərəqəsi tərtib edilir.

4.5. Qeydiyyat-nəzarət vərəqəsi tərtib edilmiş müraciətlərin cavablandırılması müraciət edənin göstərdiyi elektron ünvan vasitəsilə elektron formada, yaxud müraciət edənin xahişi ilə poçt ünvanı vasitəsilə yazılı və ya telefon rabitəsi ilə şifahi qaydada həyata keçirilə bilər.

4.6. Müraciətin bu Qaydanın 4.3-4.5-ci bəndlərinə uyğun olaraq cavablandırılması mümkün olmadıqda, müraciətin yazılı şəkildə təqdim edilməsi təklif olunur.

4.7. Videoqəbul zamanı vətəndaşın müraciəti ilə bağlı lazımı sənədlərin təqdim edilməsi zərurəti yarandıqda, vətəndaşa həmin sənədləri müvafiq əlaqə vasitələrindən istifadə etməklə elektron formada təqdim etmək tövsiyə olunur. Həmin sənədlərin surəti "Elektron sənəd dövriyyəsi" informasiya sistemində vətəndaşın müraciətinə əlavə olunur.

4.8. Videoqəbul formasında edilmiş müraciətlərin baxılmamış saxlanılması "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsi ilə təmzimlənir.

**5. Yekun müddəalar**

5.1. Vətəndaşların videoqəbullarının təşkili prosesində şəffaflığın təmin edilməsi, həmçinin qəbulla bağlı şikayətlərin operativ araşdırılması məqsədilə Nazirliyin Katibliyinin Vətəndaşların qəbulu şöbəsi və nazirliyin "qaynar xətti" ilə əlaqə yaratmaq üçün telefon nömrələri, eləcə də ədliyyə orqanlarında vətəndaşların qəbulu qrafiki videoqəbulun aparıldığı yerdə asılır.

5.2. Videoqəbulların keçirildiyi yerlərdə müvafiq sanitariya-gigiyena normalarına və xüsusi rejim tətbiq edildiyi halda onun qaydalarına ciddi əməl olunmalıdır.

5.3. Videoqəbulların təşkili üçün aidiyyəti struktur qurumların rəhbərləri məsuliyyət daşıyırlar.

5.4. Nazirliyin Katibliyi bu Qaydanın tələblərinə riayət edilməsini təmin edir və keçirilmiş videoqəbular və onların nəticələri barədə hər yarımildə Nazirliyin rəhbərliyinə məlumat verir.

5.5. Bu Qaydanın müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə də şamil edilir.

# QANUNÇULUQ

hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1859 Tiraj:1100 ədəd